# *Bəxtiyarlıq Vədləri*

## *ilə*

# *Məsihdə Böyümək*

Bu kitabı pulsuz paylamaq üçün kopiyalarını çap etmək istəyirsiniz? Yoxsa cihazlarda istifadə etmək üçün endirmək istəyirsiniz?

Bu kitabı ingiliscə və digər dillərdə aşağıdakı saytdan pulsuz endirmək olar: **www.learnhisways.com**.

Kitabın məzmunu əhəmiyyətli dərəcədə aşağıdakı kitabdan götürülüb, qısa və məqsədə uyğun şəkildə təqdim edilmişdir: *CrossTies: The Beatitudes for Every Believer,* Paul A. Looney, MD. Bu aterialdan müəllifin icazəsi ilə istifadə edilmişdir. *CrossTies* www.amazon.com saytından satın alına bilər.

Bütün kəlamlar MÜQƏDDƏS KİTAB-dan gürtürülmüşdür. © MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhti-Cədid) Əhti-Ətiq © MKŞ 2004, 2006, 2009 (təkrar yoxlanılmış) Əhti-Cədid © MKŞ 2009 (yeni tərcümə)

Translated from the English
*Growing Strong in Christ through the Beatitudes*

© 2017 Life Resources

***“Ey bütün yorğunlar və yükləri ağır olanlar,***
***Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm.***
***Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız. Çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür.”***
***(Matta 11:28-30)***

# Mündəricat

Bu kitabdan necə istifadə etmək olar? ................................6

**1. Giriş**

1-ci gün – Sağalmaq üçün nəyə ehtiyacımız var? ................8

Bəxtiyarlıq vədləri ......................................................9

**2. Nə bəxtiyardır ruhən yoxsullar!**

2-ci gün – Kim yoxsul olmaq istəyir? ................................10

3-cü gün – İsa Öz Padşahlığını yer üzünə gətirir ...............12

4-cü gün – Qürur Allahın həyatımızda işləməyinə mane olur ....................................................................14

**3. Nə bəxtiyardır yaslı olanlar!**

5-ci gün – "Xeyirli kədər" deyə bir şey varmı? ..................16

6-cı gün – Harada təsəlli axtarırsınız? ................................18

7-ci gün – Siz Böyük Həkimə müraciət edəcəksinizmi? ....20

**4. Nə bəxtiyardır həlimlər!**

8-ci gün – Allahın həyatınızı idarə etməsinə imkan verin ..22

9-cu gün – Allahın sizə başqaları vasitəsilə xidmət edəcəyinə inanın ...........................................................24

10-cu gün – Dəyişiklik çox vaxt yavaş olur, lakin Allah dərindən işləyir ...........................................................26

**5. Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar!**

11-ci gün – İsa bizdən həqiqətən nə istəyir? .......................28

12-ci gün – Salehlik üçün acıb-susamanın həqiqi mənası nədir? ..............................................................................30

13-cü gün – Daxilimizdə olan Müqəddəs Ruhun qüvvəti ..32

14-cü gün – Şeytanın yalanlarını dəf etmək üçün həqiqəti danışın! ..........................................................................34

**6. Nə bəxtiyardır mərhəmətli olanlar!**

15-ci gün – Daha mərhəmətli insanlar olmaq ....................36

16-cı gün – Uşaqlıq travmalarınız sağalıbmı?....................38
17-ci gün – Bağışlamağın böyük əziyyəti..........................40
18-ci gün – Başqalarını bağışlamaq, onlara xeyir-dua vermək üçün vaxt ayırın ..........................................42

**7. Nə bəxtiyardır ürəyi təmiz olanlar!**

19-cu gün – Azadlığa doğru cəsarətli addım atın...............44
20-ci gün – Məsihin lütfünə iman etmək...........................46
21-ci gün – Allahın ürəyinizi yoxlamasına yol verin - 1-ci hissə..........................................................................48
22-ci gün – Allahın ürəyinizi yoxlamasına yol verin - 2-ci hissə..........................................................................50
23-cü gün – Xəcalətin kökünün kəsilməsi.........................52

**8. Nə bəxtiyardır sülhyaradanlar!**

24-cü gün – Allahımız sülhyaradandır...............................54
25-ci gün – İncitdiyimiz başqa insanlarla düz olmaq.........56
26-cı gün – İsa dünyanı necə dəyişdirir............................58

**9. Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər!**

27-ci gün – Məsihlə birlikdə təqiblərdən keçmək.............60
28-ci gün – Biz Məsihlə birlikdə dayanacağıqmı?.............62
29-cu gün – Azad olmaq üçün dua və Allahın iradəsinə təslim..........................................................................64

**10. Son sözlər**

30-cu gün – Bizi əbədi olaraq qidalandıracaq Çörəyi tapmaq ..........................................................................66
31-ci gün – Özünüzdə şükür edən ürəyi yaradın................68
İman bəyanatları..............................................................70
Bu kitab sizə faydalı olubmu? ...........................................72
Tərcüməçilər üçün Qaydalar ............................................73

# Bu kitabdan necə istifadə etmək olar?

***İki yol*:**

## 1) Fərdi olaraq Allahla birlikdə oxumaq üçün.

Bu kitab, bundan fərdi olaraq istifadə edənlər üçün **31 günlük düşüncələr şəklində** yazılmışdır.

- **Mötərizəyə alınmış bütün ayələri oxumağı** və oxuduğunuzu düşünməyə zaman ayırmağı unutmayın.
- Bundan dua etmək və şəxsən inkişaf etmək üçün istifadə edin.
- "Düşünmək və yazmaq üçün təklif" başlıqlı **son bölmədə fikirlərinizi yazın**. Gələn illərdə bu qeydlərinizə qayıda bilərsiniz.

**2) Kiçik qrupda öyrənmək üçün**. Bir dostunuzla birlikdə oxuyun, yaxud ev cəmiyyətinizdə və ya Müqəddəs Kitabı öyrənən qrupda birgə öyrənin.

**Qrupda səmərəli öyrənmə prinsipləri:**

- Hər dəfə öyrənməyə başlayarkən yollarını sizə öyrətməsini Rəbdən diləyin.
- Vaxtınız imkan verirsə, hər yığıncağınızda 2 və ya 3 hissəni də oxuya bilərsiniz.
- Mötərizəyə alınmış bütün ayələri oxumağa zaman ayırın.
- **Oxuduqlarınızı müzakirə edin.** Kiçik qrupun gücü hamının passiv dinləməsində deyil, fəal iştirak etməsindədir.
- Qrupun rəhbəri dərsi vəz etməməli, bunun əvəzinə hamının iştirak etməsinə kömək etməlidir. İştirakçılar növbə ilə oxuya bilər, sual verə bilər, öyrəndiklərini müzakirə edə bilərlər.
- **İştirakçıların oxuduqlarını daha dərin düşünmələri üçün rəhbər belə sual verə bilər:** Bu parçada bizə nə deyildiyini kim öz sözləri ilə izah edə bilər? YAXUD... Oxunan parçaya bir dəqiqə nəzər salın. Rəbb bunun vasitəsilə sizə nə deyir? YAXUD... Bunu etmək bizim üçün niyə çətindir?
- Qrup müzakirəsi üçün sual olaraq "Düşünmək və yazmaq üçün təklif"dən istifadə edin; yaxud qrupunuzun üzvləri tapşırığı evdə yerinə yetirməyi qərara ala bilərlər.

- **Sonunda birgə duaya zaman ayırın,** Rəbdən bu dərsi həyatınıza tətbiq etməkdə sizə kömək etməsini diləyin.
- **Hər kəsin (təkcə rəhbərin deyil) əlində öz kitabını tutması** (çap, yaxud rəqəmsal versiyada) məsləhət görülür. Beləcə hamı birlikdə oxuya bilər.
- Qrupunuzun üzvlərini bu dərsi evlərində təkrar oxumağa təşviq edin. **Bəlkə onlar eyni materialı yığıncaqlarınız arasında öz qohumları və ya dostları ilə birlikdə də oxumaq istəyərlər.**

**Hərənin bir kitabı olsun deyə**: BURADAN PULSUZ ENDİRİN: www.learnhisways.com

## *İ. Giriş*

# 1-ci gün – Sağalmaq üçün nəyə ehtiyacımız var?

**Düşünün:** *"Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Mən salehləri deyil, günahkarları çağırmaq üçün gəlmişəm." (Mark 2:17)*

Biz ilk dəfə İsaya gələndə həyatımızın qarışıq halda olduğunu müəyyən dərəcədə anlayırdıq. İldən-ilə imanda böyüdükcə, özümüzü aldatmasaq, bu halımızın əslində düşündüyümüzdən qat-qat daha dərin olduğunu dərk edirik. Bəli, İsa həyatımızda əla işlər görüb, lakin hələ çox işlər görməyinə ehtiyac qalır.

Biz anlayırıq ki, bu vəziyyətə birdən düşmədik. Buna görə, birdən düzələcəyimizə də ümid edə bilmərik. Mənəvi xəstəliyimiz zamanla inkişaf etdiyi kimi sağalmamız da, güman ki, zamanla baş verəcək.

Aşağıdakı gündəlik düşüncələr, "Bəxtiyarlıq vədləri" olaraq adlandırdığımız Matta 5:3-12 ayələrinə əsaslanmaqdadır. İsa *"Nə bəxtiyardır…"* dedikdə daxili səadət və dinclik halını nəzərdə tutur. Bu bəxtiyarlıq elə bir haldır ki, insan özünü tam, yetkin və rahat hiss edir.

Daxilimizdə Məsihin xasiyyəti formalaşdıqca biz mənəvi sağlamlığımızda böyüyürük. Ancaq bu sağalma insanın öz şəxsi həyatı ilə məhdud deyildir. O həmçinin yaxşılaşan münasibətlərdə özünü büruzə verir. Biz gündən-günə bunun üçün çalışdıqca məsihçi cəmiyyətlərimiz daha doğru və Rəbbin gücü ilə dolu olacaqlar. Bu yolla biz həqiqətən dünyanın nuru olacağıq (Matta 5:14-16).

**Sonrakı səhifədə verilən Matta 5:2-12 üzərində düşünərək irəlidəki günlərə hazırlaşın. Bu ayələri əzbərdən söyləyə bilərsinizmi?**

## *Bəxtiyarlıq vədləri*

***2İsa danışmağa başlayıb onları öyrədərək dedi:***

***3Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır.***

***4Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq.***

***5Nə bəxtiyardır həlimlər! Çünki onlar yer üzünü irs alacaq.***

***6Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.***

***7Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək.***

***8Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.***

***9Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq.***

***10Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır.***

***11İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər. (Matta 5:2-12)***

# 2-ci gün – Kim yoxsul olmaq istəyir?

**Düşünün:** *“Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır.” (Matta 5:3)*

Birinci bəxtiyarlıq vədi, pis olaraq qəbul etdiyimiz bir şeyin əslində yaxşı ola biləcəyini düşünməyimizi tələb edir. İsa burada " Ən xoşbəxt, ən bəxtiyar insanlar, ümidsizcəsinə möhtac olanlardır" deyir.

Bu fikir ilk baxışdan mənasız görünə bilər. Ruhumuz Allaha ən çox bənzəyən hissəmiz olduğuna görə bizə ruhən zəngin olmaq yaxşı gəlir. Lakin insanın ruhu Allaha ən çox bənzəyən hissəsi olmaqla bərabər, həmçinin özünü Allah yerinə qoymağa meylli bir hissəsidir. Allah bizə azad iradə vermişdir. Biz öz istədiyimiz kimi hərəkət etməyi seçə bilərik.

Çox vaxt uğurlu insanlar uzun zaman hər şeyə nəzarət edirmiş kimi yaşaya bilərlər. Öz həyatlarını, "padşahlıq"larını özləri lap yaxşı idarə edirlər. Dünyanın təklif etdiyindən razı olduqlarına görə, məhz bunu əldə edirlər. Onların maşınları, evləri, rahat şəraitləri var və bəzən onlara qibtə etməmək çətindir. Lakin ürəklərimiz göylərə məxsusdursa, biz əsla maddi şeylərdə xoşbəxtlik tapmayacağıq.

İsa deyir ki, əzilmiş halda olan, bacarmayan insanlar Onun Padşahlığına ən yaxşı namizəddirlər. Xoş xəbər budur ki, Allah bizi qəbul etməkdən sevinir:

> *Rəbb qəlbisınıqlara yaxındır, O, ruhən əzilmişləri qurtarır. (Zəbur 34:18)*

Allaha öz acizliyimizi etiraf etsək, tamamilə yeni bir şəkildə Ona açılırıq. Lütfün mənasını daha dolğun bir şəkildə öyrənirik.

> *Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir. Əməllərlə deyil ki, heç kim öyünə bilməsin. (Efeslilərə 2:8-9)*

**Düşünmək və yazmaq üçün təklif:**

Həyatınızın hansı sahələrində Allaha ən böyük ehtiyacınız var?

# 3-cü gün – İsa Öz Padşahlığını yer üzünə gətirir

**Düşünün:** *“Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır.”* (*Matta 5:3)*

İsa ruhən yoxsul olanlara "Səmavi Padşahlığ"ı vəd edir. Məgər O sadəcə olaraq onların cənnətə gedəcəklərini nəzərdə tutur?

Müjdələri (Matta, Mark, Luka, Yəhya) diqqətlə oxusaq, görəcəyik ki, İsa Səmavi Padşahlıqdan tez-tez danışıb və bəzən buna Allahın Padşahlığı da deyib. İsa vəz etməyə başlayarkən belə dedi:

> *"Vaxt yetişib, Allahın Padşahlığı yaxınlaşıb. Tövbə edin və Müjdəyə inanın." (Mark 1:15)*

İsanın gəlməsi ilə Allahın Padşahlığı yer üzünə gəlmişdir. Hər şey dəyişməyə başlamışdır!

İnsanlar uzun müddət zülmkar padşahların səltənətində, şeytanın və günahın əsarətində yaşamışdılar. İsa Özünün Padşah olaraq gəlməsi ilə Allahın Padşahlığının gəldiyini elan etdi. Başqa padşahlıqların hamısı İsanın səltənətinə boyun əyəcək. (Bax: Vəhy 17:14.)

İsa yer üzündə xəstələrə şəfa verməklə, cinləri qovmaqla, fırtınaların sakitləşməsini əmr etməklə, minlərlə insan üçün çörək çoxaltmaqla, hətta ölüləri diriltməklə qüdrətini göstərdi. Çarmıxda ölüb dirilməsi ilə O, şeytanı, günahı və ölümü məğlub etdi. Ölüm belə İsaya qalib gələ bilmədi.

Siz İsanın Padşahlığına öləndə daxil olmazsınız, lakin ruhən yoxsul, itmiş olduğunuzu etiraf etdiyiniz, öz Xilaskarınız və Rəbbiniz olaraq İsaya iman gətirdiyiniz anda oraya daxil olarsınız. Siz Padşaha məxsussunuz! Müjdələrdə oxuduğumuz insanların həyatları dəyişildiyi kimi sizin həyatınız da dəyişilməyə başlayar! Müqəddəs Ruh həyatınızı kökündən dəyişdirməyə başlayar. Bu dərslər sizi belə dəyişikliklərə hazırlamağa kömək edəcəkdir.

**Düşünmək və yazmaq üçün təklif:**

Matta 6:10-da İsanın duasından bu sözləri diqqətlə nəzərdən keçirin: *"Padşahlığın gəlsin, göydə olduğu kimi yerdə də Sənin iradən olsun"*. Sizcə, İsa yaşadığınız mühiti necə dəyişdirmək istəyir?dünyanı necə dəyişdirmək istəyir? İndi fikirlərinizi yazmağa zaman ayırın və eləcə də dua və həmd edərək İsanı öz dünyanıza qəbul edin.

# 4-cü gün – Qürur Allahın həyatımızda işləməyinə mane olur

**Düşünün:** *“Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır.”* (*Matta 5:3)*

İsa padşahlıq qüdrəti ilə insanlara şəfa verir, cinlərdən azad edir və digər möcüzələr yaradırdı, ancaq Ondan öyrənmək istəməyənləri məcbur etmirdi. Bunununla belə O, Öz yaşadığı dövrün qürurlu dini rəhbərlərinə belə xəbərdarlıq edirdi:

> *"Sizə doğrusunu deyirəm: vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər." (Matta 21:31)*

Dini rəhbərlər belə "günahkar"lara həqarətlə baxır, onlarla yemək yediyinə görə İsanı qınayırdılar. Lakin o insanlar günahkar olduqlarını etiraf edirdi. Onlar ruhən yoxsul idi, Allaha möhtac olduqlarını qəbul edir, gəlib İsadan öyrənirdilər. İsa belə insanların, özlərini saleh sayan ilahiyyatçılarla fariseylərdən fərqli olaraq, Allah tərəfindən ucaldılacağını deyirdi. O öyrədirdi ki, Allahın və başqa insanların önündə özünü saleh kimi göstərən insanı Allah ucaltmaz. Əksinə, belə insan alçaldılacaq (Luka 18:9-14).

Əgər siz Allahın və başqa insanların önündə özünüzü aşağı tutmadan həyatınızı yaxşı idarə edə biləcəyinizi düşünürsünüzsə, özünüzü ruhən yoxsul kimi aparmırsınız. Əksinə, Allahın yolunu axtarmaq əvəzinə öz padşahlığınızdan yapışırsınız. Ancaq biz hər şeyi nəzarət altında saxladığımızı düşünəndə aldanırıq. Bəli, Allah bizə müəyyən qədər nəzarət və səlahiyyət verir. Bununla belə, İsa açıqca dedi ki, *"Mənsiz heç nə edə bilməzsiniz"* (Yəhya 15:5).

Həyatımızdakı dəyişmə, Məsihdə dinclik tapmağı öyrənməyimizlə başlayır. Ruhən yoxsullar razılaşırlar ki, onların salehliyi Allahın müqəddəsliyinin yanında "murdar əskiyə bənzəyir" (Yeşaya 64:6). Hər şeydə, həm xilas olmaq, həm də gündən günə dəyişmək üçün, Allaha möhtac olduqlarını dərk edirlər. Biz imanda dinclik tapanda, dəyişiklik baş verir. Biz qüvvətsizlik həddinə çatanda, Allah bizi qüvvətləndirməyə hazır olur.

## **Düşünmək və yazmaq üçün təklif:**

Luka 18:9-14 və 1-ci Peter 5:5-6-i oxuyun. Bu iki parçada qürurlu davranışa qarşı şiddətli sözlər deyilir. Bunları oxuyarkən, həyatınızda olan hər hansı qüruru sizə göstərməyini Müqəddəs Ruhdan diləyin. Fikirlərinizi aşağıda bir dua şəklində yazın.

*3. Nə bəxtiyardır yaslı olanlar!*

# 5-ci gün – "Xeyirli kədər" deyə bir şey varmı?

**Düşünün:** *"Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq."* (*Matta 5:4)*

Qəribə sözdür, elə deyilmi? İsa yenə, elə bil, bizdə mənfi hisslər yaradan bir şey haqqında müsbət düşünməyimizi tələb edir. Biz yas haqqında düşünəndə ağlımıza adətən cənazə gəlir. Ancaq yas, İsanın ikinci gəlişinə qədər təkcə ölümün deyil, həyatın da bir hissəsi olaraq qalacaqdır.

Biz günaha batmış bir dünyada yaşayırıq. Biz bu qüsurlu məkanda yaşayan qüsurlu vücudlarıq. Buna görə də mütləq uğursuzluğa və ağrıya düçar oluruq. Bu həqiqətdir və İsa əsla həqiqətdən qaçmaz. İsa bilir ki, biz mənalı həyat sürsək, itki və iztirab çəkməyimiz labüddür. İsa bizi bu həqiqətlə üz-üzə gəlməyə təşviq edir. O bilir ki, biz qiymətli bir şey itirəndə bu həqiqətlə üz-üzə gəlməkdən çox faydalana bilərik.

> *Hikmətli adamın ürəyi yas evindədir, amma ağılsızın ürəyi şadlıq evində. (Vaiz 7:4)*

Lakin yas evi cəlbedici bir yer deyildir. Biz qaçmaq istəyirik, çox vaxt ağrıdan uzaqlaşmaq üçün müvəqqəti zövqlərlə özümüzü yayındırırıq. Əslində, yaslı olmaq, ağrı içində ən yaxşı davranışımızdır. Kədərimiz göstərir ki, biz qiymətli bir şey itirdiyimizi anlayırıq. Bəzən bunun səbəbi ya öz günahımız ya da başqalarının bizə qarşı işlətdiyi günahlar ola bilər.

Yas bizi imansız fikirlərdən (*Necə olub ki, bu iş başıma gəlib?*), kədər, ağrı, hirs və məyusluqdan keçirərək rahatlığa gətirir. Bunun üçün vaxt lazımdır, lakin yas bizi həmişə keçmişdə yaşamaqdan, kədərlənməkdən və peşmançılıq çəkməkdən saxlayır. Yas bizim irəli getməyimizə imkan yaradır.

**Düşünmək və yazmaq üçün təklif:**

İçinizdəki bir ağrı haqqında Allaha dua yazın. Mənfi hisslərinizi ifadə edin. Bəziləriniz üçün bu çox çətin olacaq. Yadda saxlayın ki, Davud öz dualarını yazmasaydı, bu gün Zəbur kitabı əlimizdə olmazdı. Davudun bəzi duaları çox mənfi hissləri, hətta Allaha qarşı qəzəbini belə ifadə edir. (Bax: 13-cü Məzmur və 38-ci Məzmur.) Biz mənfi məzmurları oxuyanda, Allahın bizim də buna bənzər yollarla dua etməmizə icazə verdiyini öyrənirik. Allah bizim dindar deyil, səmimi olmağımızı istəyir.

# 6-cı gün – Harada təsəlli axtarırsınız?

**Düşünün:** *“Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq.”* (*Matta 5:4)*

Bir adam bir yaxın qohumundan böyük zərbə almışdı. Onun bir dostu, "Sən heç ağlamırsanmı?" deyə ondan soruşdu. Dostu gördü ki, o adam, qəlbinin dərinliyində ağrı daşıyır və Məsihə buraxmır.

Siz müntəzəm olaraq dayanıb qəlbinizdə nə hiss etdiyinizi düşünürsünüzmü?

Çox adama kədərini boğmağı hələ uşaq ikən öyrətdilər. "Ağlamağını kəs, yoxsa səni daha pis ağladacağam!" Ələlxüsus uşaqlıqda travma almış şəxslər ağrılarını içində boğmağa öyrəşirlər və beləcə ağrılarının unudulacağına ümid edirlər.

Lakin Allah onlara kədər vasitəsilə şəfa verməsə, ağrılı yaraları yetkinlik dövrünə qədər onların içində qalacaq. Biz rahatlıq istəyirik, odur ki, ağrını yüngülləşdirmək üçün çox vaxt günahlı vərdişlərə alışırıq. Kimi spirtli içkilərə, kimi narkotikə, kimi pornoqrafiyaya alışır.

Kimi həddən artıq yeməkdə və ya pul xərcləməkdə təsəlli tapır. Kimi saatlarla televiziyaya baxmaqla və ya video oyunları oynamaqla yaralı ruhlarını təskinləşdirir. Kimi illər uzunu həddən artıq işləməklə kədərini boğur. Lakin ağrı hələ də qalır. Bu zərərli vərdişlər insanların zehnində kök salır. Sağlam həyat ilə təması kəsirlər.

Allah zehindəki bir bütlə əvəz olunur. Bizə elə gəlir ki, xoşbəxt yaşamaq üçün o büt bizə lazımdır. Bütlər, özlərinə təslim olanlara müvəqqəti olaraq yüngüllük hissi verirlər. Beləcə bütlər ibadətimiz üçün Allahın rəqibi olurlar. Lakin Rəbb istəyir ki, biz ağrımızı kökündən kəsək. Bizi həqiqətən narahat edən nədir və biz ağrımızla nə edə bilərik?

> *Bütün qayğı yükünüzü Ona ötürün, çünki O sizin qayğınıza qalır. (1-ci Peter 5:7)*

Biz dərin şəfa və təsəlli tapmaq üçün Rəbbə tərəf dönəndə, həyatımızda olan bütlərə yox deməyə güc tapırıq.

> *"Mən də Atadan xahiş edəcəyəm və O sizə başqa bir Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur.” (Yəhya 14:16)*

İsa burada Müqəddəs Ruhu "Vəsatətçi" yaxud "Təsəlliverici" adlandırır; bu kəlmə Matta 5:4-dəki "*təsəlli"* ilə eyni kökdəndir. Biz Allahın Təsəlliverici Ruhundan təsəlli alırıq.

## Düşünmək və yazmaq üçün təklif:

Aşağıdakı ayələrə əsasən dua edin və fikirlərinizi yazın: Zəbur 34:18 və Zəbur 147:3. Rəbbin təsəllisinə ehtiyacınız olan məqamları Rəbbə deyin.

# 7-ci gün – Siz Böyük Həkimə müraciət edəcəksinizmi?

**Düşünün:** *“Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq.”* (*Matta 5:4)*

Günlərin birində şiddətli ağrı içində olan bir futbolçu həkimin yanına gəldi. Futbolçunun kürəyində yekə bir yara var idi. Yarası qıpqırmızı, ortası ağ idi.

Həkim bu əhvalatı belə danışdı: "Mən bilirdim ki, yaranı açıb təmizləmək lazımdır, ancaq bunu edərkən gənc adamın dözülməz ağrısı olacağını da bilirdim. Lakin o adam ağrıya dözməyə hazır idi, gözlərini yumub hazırlaşdı ki, mən işimi görüm. Bir neçə gün sonra kürəyi sağaldı".

Ağrıdan heç kəs xoşlanmaz. Biz ya problemimizi inkar edirik, ya da onunla üzləşməyi təxirə salırıq. Ancaq o futbolçu kimi bizim də seçimimiz vardır. Böyük Həkimimiz İsanın yaralarımızı açıb təmizləməyinə izin verə bilərik, ya da günahlı vərdişlərimizlə ağrını yüngülləşdirə bilərik.

"Yaslı olma" halı müxtəlif yollarla ifadə edilir. Lakin bu halda olan hər kəs içindəki hisslərini anlayır və itirdiyi bir şeyə görə kədərlənir. Bəzi insanlar qorxurlar ki, ağlamağa başlasalar heç vaxt dayana bilməzlər.

Başqaları özlərinə qarşı işlədilən günahlardan ötəri qəzəbləri ilə üzləşmək istəmirlər, çünki dəhşətli bir şey edəcəklərindən qorxurlar. Ancaq, 5-cü gündə dediyimiz kimi, İsa həqiqətlə üz-üzə gəlməyimizi istəyir.

İşlətdiyimiz günahlara görə kədərlənmək vacib olduğu kimi, başqalarının bizə qarşı işlətdiyi günahları və bizə verdiyi iztirabı da inkar etməməliyik.

Yadınızda qalsın: İsa deyir ki, yaslı olmaq yaxşıdır və bu bizə təsəlli verəcək. Bu barədə İsaya güvənə bilərsinizmi?

**Düşünmək və yazmaq üçün təklif:**

Həvari Paul dedi ki, bəzən Müqəddəs Ruh dillə deyilməyən ahlarla bizim üçün dua edir. (Bax: Romalılara 8:26-27.) Siz indi öz ağrınızı Ona açarsınızmı?

# 8-ci gün – Allahın həyatınızı idarə etməsinə imkan verin

**Düşünün:** *“Nə bəxtiyardır həlimlər! Çünki onlar yer üzünü irs alacaq.” (Matta 5:5)*

Hamımız azad yaşamağı arzu edirik. Lakin həqiqi azadlıq nədir? Bizə anlamaq çətindir ki, məhdudiyyətlər əslində azad olmağımıza kömək edir! Məsələn, dəmir yolunda relslər qatarın gedə biləcəyi yerləri məhdudlaşdırır, amma qatardakılar və digər insanların təhlükəsizliyini təmin edir.

Biz həlim olanda müvafiq məhdudiyyətlərə tabe oluruq və hətta onlara görə sevinirik. Hər şey bizim istədiyimiz kimi olmalı deyildir. Zəbur 119:32-nin mümkün tərcümə variantlarından biri belədir:

*"Sən qəlbimi azad etdiyinə görə mən Sənin əmrlərinin yolu ilə qaçıram."*

Allahın yoluna tabe olan insan azad və enerjili olur!

Bu ayədə həlim olaraq tərcümə edilmiş yunanca kəlmə PRAUTES-dir, yəni "nəzarət altında olan güc." Xoşxasiyyət, ram edilmiş bir at, ona minən adamın əmrinə itaət edər. *Prautes* kəlməsi belə mülayim və itaətkar halı bildirir.

Həlimlik öz düşüncə, inam və davranma yolumuzdan Allahın yoluna dönməkdən ibarətdir. Onun yolu, Ruhu ilə yönləndirilməyi öyrənməkdən ibarətdir. (Bax: Romalılara 8:12-14.) Bəzilərimiz Allahın bizim tərəfimizdə olmasını istəyirik, lakin özümüz həqiqətən dəyişmək istəmirik. Sanki belə dua edirik: "Sənin iradəni istəyirəm, amma qoy iradən mənim istədiyim şəkildə olsun!" Öz müstəqil ruhumuzdan əl çəkməyə hələ hazır deyilik.

Müstəqil ruh, Allahın Padşahlığının qurulmasında iştirak edə bilməz. Allah bizim yaxşılığımız üçün çalışmaya hazırdır, lakin biz öz həyatımızı büsbütün Ona təslim etməsək, O, həyatımızda çox iş görə bilməyəcək.

*Sonra İsa hamısına söylədi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin." (Luka 9:23)*

**Düşünmək və yazmaq üçün təklif:**

Biz Məsihə iman edərək Ruhdan doğulmuşuq. Lakin Qalatiyalılara 5-də Paul Ruhu qəbul edən, ancaq *"Ruhun rəhbərliyi altında"* olmağı öyrənməli olan imanlılara müraciət edir. Onlar çox vaxt cismani təbiətə görə yaşayırlar. Allahın yoluna tabe olmağı və etdikləri hər işdə yaxşı meyvə verməyi öyrənmədilər. Qalatiyalılara 5:16-26 üzərində düşünün. Müqəddəs Ruh, həyatınızda Onun yönəltməsinə və nəzarətinə ehtiyacı olan sahələrini sizə göstərirmi? Siz indi o sahələri Ona tabe etmək istəyirsinizmi?

# 9-cu gün – Allahın sizə başqaları vasitəsilə xidmət edəcəyinə inanın

**Düşünün:** *"Nə bəxtiyardır həlimlər! Çünki onlar yer üzünü irs alacaq." (Matta 5:5)*

Həlimlik təkcə Allaha güvənərək həyatımızı Ona vermək mənasına gəlmir. Allaha güvənməyin ən çətin cəhətlərindən biri, Allahın həyat yolumuzda bizə yardım etmək üçün başqa bir şəxsdən istifadə etməyinə inanmaq ola bilər. Keçmişdə başqa insanlar ümidlərimizi doğrultmayıb, bizi aldadıb və ya yaralayıbsa, indi niyə kiməsə inanaq?

Başqalarının bizə həyat yolumuzda yardım etmələrinə güvənmək heç də həmişə asan olmur, lakin Allahın yolu budur. Allah bizə tez-tez başqaları vasitəsilə xidmət edir və bir-birimizin yüklərini daşımağımızı buyurur (Qal. 6:2). Allah yolda bizdən irəlidə olanların vasitəsilə bizi qaldıracaq və bizə yol göstərəcək. Hətta imanda bizdən daha gənc olan imanlılar belə bizə yardım edə bilərlər.

Həlimlik bizə yaxşı təsir göstərir. Başqalarından göstəriş almaqla özgədən yardıma ehtiyacımız olduğunu göstəririk. Başqalarına bizdən ağıllı və ya bizdən daha çox ruhani olduqlarına görə deyil, Allahın onların vasitəsilə həyatımızda işləməyinə inandığımıza görə tabe oluruq. Bədənin heç bir üzvü başqalarına "Siz mənə lazım deyilsiniz" deyə bilməz (1Kor. 12:21).

Bu gözəl həqiqətin ruhumuzda kök salmasına imkan versək, Məsihin Bədənində heyranedici şeylər baş verə bilər. Biz bu dünyadan tamamilə fərqlənən bir yolda yaşayırıq. Dünya sevinə-sevinə Allaha tabe olduğumuzu *və* səmimiyyətlə, həlimliklə bir-birimizə tabe olduğumuzu da görəcək. Biz sağlam bir cəmiyyət olacağıq! Çoxları bunu görüb Məsihə cəlb olunacaqlar.

## **Düşünmək və yazmaq üçün təklif:**

1-ci Korinflilərə 12:14-27-ni oxuyun. Başqa imanlıların həyatınıza nə şəkildə xidmət etməyinə ehtiyacınız var? Başqalarına verə biləcəyiniz hansı ənamlarınız var? Cavablarınızı yazın və Bədən xidmətinin ətrafınızdakı imanlılarla sizin aranızda böyüməsi üçün dua edin.

# 10-cu gün – Dəyişiklik çox vaxt yavaş olur, lakin Allah dərindən işləyir

**<u>Düşünün:</u>** “*Nə bəxtiyardır həlimlər! Çünki onlar yer üzünü irs alacaq.*” *(Matta 5:5)*

Son iki gündə həlimliyin nədən ibarət olduğunu nəzərdən keçirmişik. Bəs həlimlik xasiyyətə necə çevrilir? Biz heç kəsə tabe olmaq istəməyən vəhşi at kimi Allahın yoluna qarşı dayanan güclü iradəmizə agah ola bilərik. O halda biz necə dəyişək? "Allahın nəzarəti altında Onun qüvvəti" ilə yaşamaq (həlimliyin mənası budur) heç də asan deyildir. Lakin biz uğursuz olanda o həqiqəti unutmamalıyıq ki, İsa həlim idi. O həmişə Atasının istədiyini edirdi. Biz də Onun kimi olmaq istəyirik, elə deyilmi? (Bax: Yəhya 8:29.)

Qalatiyalılara Məktubun 5-ci fəslində Həvari Paul həlimlikdən Ruhun səmərəsi olaraq bəhs edir (Qalatiyalılara 5:22-23). Bunu yadda saxlamaq vacibdir ki, içimizdə yaşayan Müqəddəs Ruh bizdə Məsihin xasiyyətini formalaşdırır. Ancaq bu heç də o demək deyil ki, biz İsanın bizi dəyişdirəcəyinə ümid bağlayıb passiv oturmalıyıq. Həm İsa, həm də həvarilər İncildə açıqca öyrədirlər ki, bizim də fəal rolumuz var, lakin bizdə bu xasiyyəti yaradan Allahdır.

Bəzən biz istəyirik ki, İsa bizi dərhal dəyişdirsin, amma biz ildən-ilə Məsihdə qaldıqca Məsihin xasiyyəti bizdə formalaşır. (Bax: Yəhya 15:1-8.) O bizə çox şey öyrətmək istəyir, Onun Ruhuna daima tabe olmalı, içimizdəki o vəhşi atı ram etməyi öyrənməliyik. Məsihin həlimliyi yavaş-yavaş bizə xoş gəlməyə başlayacaq. Məsihə məxsus olmağımıza sevinəcəyik. Geriyə baxıb Allahın bizi gətirdiyi yerə görə şükür edəcəyik.

İsanın bu vədini yada salın: güclü iradəli və zorakı insanlar yer üzünü irs almayacaqlar. Gün gələcək, Allah yer üzünü həlimlərə verəcəkdir. Haleluya! Həlimlər o günü səbirlə gözləyirlər və onun üçün səylə dua edirlər (Matta 6:10).

**Düşünmək və yazmaq üçün təklif:**

Yəhya 15:1-11-in həyatınızda gerçəkləşməsi üçün dua edin. İstəyirsinizsə, duanızı aşağıdakı xətlərdə yazın.

*5. Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar!*

# 11-ci gün – İsa bizdən həqiqətən nə istəyir?

**Düşünün:** *“Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.” (Matta 5:6)*

Yəhya 4-də İsanın Samariyada rastlaşdığı bir qadınla söhbəti nəql edilir. İsanın dediyi sözlər qadına ümid verdi. İsa onun keçmişinə, nə qədər məyus halda olduğuna, bir neçə kişi ilə münasibət qurmağına baxmayaraq onu qane edən bir şey tapa bilmədiyindən xəbərdar idi. Lakin İsa o qadına belə dedi:

> *"Əgər sən Allahın bəxşişini və ‘Mənə su ver, içim’ deyənin Kim olduğunu bilsəydin, özün Ondan su istəyərdin, O da sənə həyat suyu verərdi." (Yəhya 4:10)*

Dördüncü bəxtiyarlıq vədi bizi tabelikdən, boyun əyməkdən İsanı daha yaxından tanıya biləcəyimiz bir yerə aparır; biz İsanın verdiyi həyat suyu üçün susamışıq. İsaya baxdıqca Allahın xasiyyətini götürürük və pis işlərdən qaçmaqdan çox səmimi olaraq yaxşı işlər görməyə səy göstərməyə başlayırıq.

Təqsirkarlıq və ya qorxu ilə deyil, sevgi ilə həvəsləndirilərək günahımızı nəzarət altında saxlamaq cəhdlərindən ötəsinə, İsaya bənzəməyə diqqətimizi veririk. Bu, sözün tam mənası ilə, salehlik üçün acıb-susamaqdır. Məsihin Özündən tamamilə razı oluruq.

Biz Allaha əzilmiş bir ruh ilə yaxınlaşanda, ağrılarımızı Ona verəndə, O bizi xoş qarşılayır (Matta 5:3-4). Allaha xoşdur ki, biz öz həyatlarımızı Ona təslim edək və Onun rəhbərliyinə tabe olaq (Matta 5:5). Ancaq əgər biz Məsihin xasiyyətinin bizdə formalaşmasını və hər gün Onunla dostluq qurmağı hər şeydən çox arzulayırıqsa, bu Rəbbi ən çox sevindirir (Matta 5:6). Siz bunun üçün acıb-susamısınızmı?

**Düşünmək və yazmaq üçün təklif:**

Əhdi-Cədid öyrədir ki, Məsihə olan imanımız bizi qanuna riayət etmək cəhdlərinə əsaslanan (qorxu ilə idarə olunan) bir həyatdan məhəbbətə əsaslanan həyata aparır. Valideynlərimiz düzgün davranmağımız üçün bizi məcburi nəzarət altına almışlar. Dövlətlər, bəzən cəmiyyətlər də belə hərəkət edər. Qayda-qanunlar bir müddət üçün faydalı ola bilər, lakin İsa bizim ürəyimizdə dərin kök salmış səmavi padşahlıq dəyərlərini qurmaq istəyir. Yeremya Peyğəmbər yeni əhddə bunun baş verəcəyini hələ Məsihdən təqribən 600 il əvvəl bildirmişdi. Yeremya 31:33-34-ü oxuyun. Rəbbi həqiqətən tanımaq və sevmək üçün Onun qanununu ürəyinizdə yazmasını diləmə duasını yazın.

# 12-ci gün – Salehlik üçün acıb-susamanın həqiqi mənası nədir?

__Düşünün:__ *“Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.” (Matta 5:6)*

Tarsuslu Şaulun həyatı, məsihçiləri təqib edən qanunpərəst dindar adamın həyatından sevinc, azadlıq və sülh ilə dolu həyata çevrilmişdir. Şaul İsada iman həyatını kəşf etmişdir; Məsihin çarmıxda onun günahlarına görə Özünü qurban verdiyinə tamamilə inanmışdır. O bilirdi ki, Allah onu tamamilə bağışlamış, qəbul etmişdir və bunu onun Allahı və ya insanı razı salmaqdan ötəri dindar cəhdlərinə görə deyil, imanı sayəsində etmişdir. Həvari Paul adı ilə tanıdığımız bu adam, Şaul, belə yazırdı:

> *Allahın lütfünü rədd etmirəm. Çünki əgər salehlik Qanun vasitəsilə qazanıla bilsəydi, deməli Məsih boş yerə öldü. (Qalatiyalılara 2:21)*

Bu günkü bəxtiyarlıq vədində İsa salehlik üçün acıb-susamaqdan danışarkən, Allahı tapmaqdan ötəri bir din nərdivanı ilə dırmanaraq əldə edilən salehliyi nəzərdə tutmur. Öz gücümüzlə Allahı axtarmaq bizi həmişə uğursuzluğa və mənəvi boşluğa aparır. İsa istəyir ki, biz mənəvi cəhətdən ac olmayaq. Həqiqi həyata nail olmaq üçün İsanın yanına gəlməliyik (Yəhya 6:35).

Filipililərə Məktubun 3-cü fəslində Həvari Paul deyir ki, keçmişdə öz dini irsinin və cəhdlərinin ona Allahın önündə xüsusi yer qazandıracağına bel bağlayırdı. Sonra belə davam edir:

> *Amma mənə fayda gətirən nə varsa, Məsih uğrunda ziyan saymışam. Bundan əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm... (Filipililərə 3:7-8)*

Paul Məsih vasitəsilə verilən əvəzsiz lütf ənamını dərk etdikdən sonra, Allaha qovuşmaq məqsədilə qanuna riayət etmək cəhdlərindən əl çəkdi. Məsihin əvəzsiz olaraq verdiyi dirilik suyunu içməyə başladı. İsanı get-gedə daha çox istəyir və bilirdi ki, öz gücü ilə dini cəhdlərinə davam edib eyni zamanda Məsihdə rahat olmağı öyrənməsi qeyri-mümkündür. "Din"dən üz döndərdi və bütün ürəyi ilə yalnız Məsihi axtardı.

İsanın onun bütün günahlarını Öz üzərinə götürdüyünə inanan Paul öz daxilində olan Müqəddəs Ruhun həyatı ilə yeni qüvvət tapdı. Bundan sabah daha ətraflı danışacağıq.

## Düşünmək və yazmaq üçün təklif:

Məsihi tapandan sonra Həvari Paul olaraq tanınan dini rəhbər Şaulun mənəvi həyat yolunu oxuyun. O, Filipililərə 3:1-14-də öz tarixçəsini nəql edir. Sonra öz həyat yolunuzda Məsihi necə tanıdığınızı yazın. Siz indi Məsihi tanımaq üçün nəyi ziyan və zibil hesab edirsiniz?

# 13-cü gün – Daxilimizdə olan Müqəddəs Ruhun qüvvəti

<u>**Düşünün:**</u> *“Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.” (Matta 5:6)*

İsa salehlik üçün acıb-susayanların *doyacağını* vəd edir. Lakin ürəyimiz ikiyə bölünmüş halda ikən Rəbb üçün necə acıb-susaya bilərik? Bəzən keçmişimizin quru çörəyinə qayıdırıq. Köhnə həyat tərzimiz bizi çox böyük qüvvətlə çəkə bilər. İsa və həvariləri öyrədiblər ki, biz cisim ilə ruh arasındakı döyüşdə iştirak edirik və bu döyüşdə laqeyd olmamalıyıq (Qalatiyalılara 5:17 və Efeslilərə 4:22-24).

Bu hərgünkü döyüş, tez-tez mübarizə etdiyimiz günahlardan agah olmaqdan və bizi pis yola çəkən şeyləri kəsib atmaqdan ibarətdir (Matta 5:29). Lakin pis vərdiş və təsirlərdən canını qurtarmaq yetərli deyildir, zərərli vərdişləri sağlam vərdişlərlə əvəz etməliyik (Kolosselilərə 3:9-10).

Bu müharibə tez-tez şiddətlənir və bəzən biz yıxılırıq, buna görə də təməl həqiqətlərə dönməliyik. Müjdə xilas üçün Allahın qüdrətidir (Romalılara 1:16,17). Biz öz-özümüzü nə xilas edə bilərik, nə də öz gücümüzlə həyatımızı dəyişdirə bilərik. İsa salehləri deyil, aciz günahkarları xilas etmək üçün dünyaya gəldi (Mark 2:17; Romalılara 7:14 və 8:2). Xilas, dərin bir işdir. Allahın önündə saleh sayılmağımız üçün yeganə yol olan çarmıxa baxmalıyıq. Arzularımızı, davranışlarımızı dəyişdirmək üçün Müqəddəs Ruhun qüvvətinə ehtiyacımız vardır. Məhz bu səbəbdən Paul Ruhdan doğulmuş imanlılara Müqəddəs Ruhla dolun deyə buyurur (Efeslilərə 5:18-20). Məsihin həyatı, Məsihin sevinci, Məsihin qələbəsi hər gün bizə güc verir.

Siz başqalarından heç xahiş etmisinizmi ki, Allahın Ruhu ilə dolmağınız üçün sizinlə birlikdə dua etsinlər? Hər gün Allahın kəlamı ilə düşüncənizi təzələyirsinizmi?

## Düşünmək və yazmaq üçün təklif:

Qalatiyalılara 5:16-26 üzərində düşünün və fikirlərinizi aşağıda yazın. Bu gün təzədən Müqəddəs Ruhla dolmağı istəyin.

# 14-cü gün – Şeytanın yalanlarını dəf etmək üçün həqiqəti danışın!

**Düşünün:** *“Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.” (Matta 5:6)*

Bu bəxtiyarlıq vədi bizi Məsihin xasiyyətini götürməkdə bir addım daha irəli aparır. Buna hələ tam nail olmamışıq, amma Allahımız "*yoxluqdan varlıq yaradan"* Allahdır (Romalılara 4:17). Bizi dəyişdirən o imandır ki, Məsihin salehliyi bizə əvəzsiz olaraq bəxş edilir. Bizdə Məsihin xasiyyətini formalaşdıran qüvvət budur.

Gözlə görünənə deyil, imana görə həyat sürürük (2-ci Korinflilərə 5:6-7). İmanla yaşadığımıza görə, Allahın vədlərinin həyata keçdiyini gözümüzlə görməzdən əvvəl bunların gerçəkliyini təsdiqləyirik. Diqqətimizi gözlə görünənin deyil, görünməyənin üzərində cəmləşdiririk. Allahın bizdə Öz işini tamamlayacağına inanırıq və həyata baxışımız təzələnir.

Məhkumluğu rədd etməyə başlayandan sonra (Romalılara 8:1), fikirlərimizdə şeytanın səsini daha yaxşı ayırd etməyə başlayırıq. Müqəddəs Kitabda şeytan "ittihamçı" olaraq adlandırılır (Vəhy 12:10). O bizi Allahın önündə gecə-gündüz ittiham edir. Əmin ola bilərsiniz ki, şeytanın ən güclü taktikalarından biri, düşüncənizi mənfi şeylərlə doldurmaqdan ibarətdir.

Biz onun yalanlarına necə qarşı dura bilərik? İsanın səhradakı sınaqlarda etdiyi kimi hərəkət etməliyik (Luka 4:1-13). İsa şeytanın hər hücumuna Allahın kəlamındakı həqiqətlərlə cavab verirdi. İmanlılar da İsadan nümunə alaraq Allahın həqiqətlərini əzbərləyib özlərinə aid olaraq qəbul etməli, düşüncələrini təzələməlidirlər.

Şeytan səhrada İsanın şəxsiyyətini şübhə altına aldığı kimi, bizim də Məsihdə olan şəxsiyyətimizə nifrət edir. O istəmir ki, biz Allahın bizim üçün etdiklərinə inanaq. Biz Allahın kəlamında qalsaq, qorunmuş olarıq.

Kitabın sonundakı əlavədə əzbərləyib özünüzə aid olaraq götürə biləcəyiniz həqiqətlər verilmişdir. (Bax: səh. 70-71.) Siz müqəddəs yazıları oxuduqca daha çox həqiqətlər tapacaqsınız. Onları öyrənin, özünüzə aid olaraq qəbul edin, onlardan bərk yapışın. Allahın həqiqətləri həyatınızı dəyişdirəcək (Yəhya 8:31-32).

## **Düşünmək və yazmaq üçün təklif:**

Səh. 70-71-dəki əlavəni açın və şeytanın sizə tez-tez dediyi yalanlara qarşı duran bəzi həqiqətləri seçib aşağıda yazın. Sonra onları əzbərləyin və özünüzə aid olaraq götürün. İsa şeytana həqiqəti dediyi kimi, siz də bu həqiqətləri o düşməninizə deyin və onları tez-tez təkrarlayın.

## *6. Nə bəxtiyardır mərhəmətli olanlar!*

# 15-ci gün – Daha mərhəmətli insanlar olmaq

**Düşünün:** *"Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək." (Matta 5:7)*

Xilaskarımızın xeyirxahlığı sayəsində təsəlli və ümid tapandan sonra biz Allahın yolumuza gətirdiyi insanlarla bunları bölüşürük. Biz özümüz kimi mübarizə aparan başqa insanlara əlimizi uzadırıq; əlimizdə olan az şeyı bölüşdükcə Allah bizə daha çox verir.

O bilir ki, biz başqalarına nə qədər çox veririksə, özümüz üçün bu qədər çox tapırıq. Əlbəttə, okean bir kasaya sığmadığı kimi, Allahın xeyirxahlığı da bizə sığmaz. Lakin biz Onun xeyirxahlığının bizdən axmasına nail olanda, qabdan daha çox boruya bənzəməyə başlayırıq. Beləliklə, siz lütfün özünüzdən axıb getməsi üçün nə qədər çox açılırsınızsa, içinizə axıb gələn lütf də artır. Allahın sizdən başqalarına axan lütfdən zövq almağa başlayırsınız. Əslində, Məsih İsa vermənin almaqdan daha çox zövq verdiyini söyləyir (Həvarilərin İşləri 20:35).

Özümüzü nə qədər çox tanısaq, başqalarının günah və nöqsanlarına o qədər çox anlayışla yanaşa bilərik. Onların hekayələrinə qulaq asdıqca, insanların nə üçün məyusluğa və tənhalığa qapıldıqlarını və bəzilərinin zərərli vərdişləri və sui-istifadələrinin səbəblərini daha yaxşı görə bilirik. Biz başqalarından "əskik" və ya "artıq" deyilik. Ürəklərimizi mərhəmətin axınına açdığımız vaxt mühakimələrimiz və qərəzli fikirlərimiz alt-üst olur. Biz görürük ki, hamımız eyniyik.

> *Heç kəsə fərq qoyulmur. Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub və Onun lütfü ilə də Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır. (Romalılara 3:22-24)*

**<u>Düşünmək və yazmaq üçün təklif:</u>**

Başqalarına qarşı ürəyinizdə mühakimə edici münasibət görürsünüzmü? Rəbbin lütfünü başqalarına da yaya biləsiniz deyə, hər gün Onun lütfünə olan ehtiyacınızı görməyinizə kömək etməsini Ondan diləyin.

# 16-cı gün – Uşaqlıq travmalarınız sağalıbmı?

**Düşünün**: *“Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək.” (Matta 5:7)*

Bizə qarşı işlədilən günahların səbəbilə aldığımız travmalardan sağalmanın yolu, bağışlamaqdır. O günahların kökü bəzən uşaqlığımıza gedib çıxır.

Ola bilir ki, qohumlarımız və ya sinif yoldaşlarımız həmişə bizi lağa salardı. Ailədəki davalar, boşanma, bizə qarşı törədilən fiziki zorakılıq – bütün bunlar hisslərimizin zədələnməsinə səbəb olur. Həmçinin narkomaniya, alkoqolizm, cinayətkarlıq kimi biabırçı "ailə sirləri" bizə sevilməyə layiq olmadığımızı hiss etdirir.

Cinsi həyatımıza da zərər dəyə bilər. Allah cinsi həyatı, ər və arvadın ən yaxın əlaqədə özlərini bir-birinə verməsi üçün gözəl bir hədiyyə olaraq insanlara bəxş etmişdir. Ancaq bundan uşaqların cinsi istismarı üçün istifadə olunduqda, uşaqlar psixoloji və emosional cəhətdən zərər görürlər. Bu onların Allahla və başqaları ilə münasibət qurmağına təsir göstərir. Siz uşaqlıqda cinsi istismara məruz qalmısınızmı?

Uşaqlar çox vaxt ailədə özlərinə qarşı yanlış davranışları, əzilmələrini normal vəziyyət kimi qəbul edirlər. Həmçinin özlərinə qarşı işlədilən günahlara görə səhvən özlərini təqsirləndirə bilirlər. Ancaq yetkinliyə keçəndə bu şeylərin bu günkü şəxsiyyətimizə necə səbəb olduğunu anlamaq önəmlidir.

Həyatımız başqalarının hərəkətləri ucbatından zərər görəndə, asanlıqla onlara kin bəsləyə bilərik. Lakin inciklik bizi, bizə qarşı günah işlədən adama ömür boyunca bağlı vəziyyətdə saxlayır. O adamı bağışlamaqla biz ağır zəncirlərdən azad oluruq.

Biz Allahın xeyirxahlığını, bizə olan məhəbbətini iqrar edəndə, keçmişdə başımıza gələnlərlə barışa bilərik.

> *Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik!. (1-ci Yəhya 3:1)*

Biz bağışlamağı seçə bilərik. Biz bir zamanlar kiçik və zəif idik, pis rəftar görürdük. İndi isə biz Məsih vasitəsilə Onun yolunu seçməyə özümüzdə güc tapırıq. Bizə qarşı günah işlədənləri bizim kimi ruhu əzilmiş insan olaraq görəndə onları daha asanlıqla bağışlaya bilərik.

## Düşünmək və yazmaq üçün təklif:

Uşaqlıqda sizə qarşı işlədilən günahları düşünün. Bəzisi çox ağrıverən ola bilər. Hansı hərəkətlərin sizə ən böyük ağrı verdiyini düşünürsünüz? Sizə qarşı işlədilən bu günahları bağışlamağın nə üçün sizə o qədər çətin gəldiyini aşağıda yazın. (Sonrakı günlər sizə bağışlamaqda kömək edə bilər. Bu günkü söhbətimizin məqsədi isə keçmişdə sizə qarşı işlədilən və hələ də kin saxlamağınıza səbəb olan günahları müəyyən etməkdə sizə kömək etməkdir).

# 17-ci gün – Bağışlamağın böyük əziyyəti

**Düşünün:** *"Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək." (Matta 5:7)*

Bağışlamaq insana əziyyət verir. Varlığının ən dərin yerlərinə toxunur. Ürəyimiz, "Onu bağışlaya bilmərəm!" deyə fəryad edir.

Belə sual vermək sizə faydalı ola bilər: "Bəs Allah bu hissləri keçirmişdirmi? Mənim kimi Onunla da pis rəftar ediblərmi, Ona da nifrət, xəyanət ediblərmi?" Daha önəmli sualı da soruşun: "Bəs mən Onu incitmişəmmi? Necə incitmişəm?"

Həyat yoldaşınız vəfasızdırsa, özünüzdən soruşun: "Mən də Allaha vəfasız olmuşammı?" Övladınız xudbin və sizə qarşı naşükürdürsə, siz də nə vaxtsa Allaha qarşı belə davranmısınızmı? Valideynləriniz ehtiyaclarınıza laqeyd qalıbmı? Özünüzdən soruşun: "Görəsən, mən də Allaha laqeyd qalırammı, səsinə qulaq asmırammı?"

İsa ilə də bu dünyada pis rəftar etdilər. Ona xor baxdılar, Onu rədd etdilər (Yeşaya 53:3). Bir dostu Onu pula satdı, sonra da öpüşlə ələ verdi! Onun dostlarına ən böyük ehtiyacı olan bir zamanda dostları Ondan qaçdılar. Onun üç il boyunca xidmət etdiyi, şəfa verdiyi xalq Onun əleyhinə çıxdı, Onu qətlə yetirdi.

Səmavi Atamız istəyir ki, biz İsa kimi olaq və bizə qarşı günah edənləri bağışlayaq. Biz onların adından Allaha yaxınlaşa bilərik, necə ki, İsa çarmıxda əzab çəkəndə, "*Ata! Onları bağışla...*" (Luka 23:34). dedi. İsa göstərir ki, biz bizə qarşı edilən pisliklərə görə əziyyət və xəcalət çəkəndə, bağışlamağı seçə bilərik.

İman yolunda qətlə yetirilən ilk məsihçi şəhid Stefan da İsadan nümunə götürmüşdü. O, daşqalaq edilərkən belə dua etdi:

> *"Ya Rəbb İsa, ruhumu qəbul et". Sonra diz çöküb ucadan nida etdi: "Ya Rəbb, bunu onlara günah sayma." Bunu deyəndən sonra gözlərini bu həyata yumdu. (Həvarilərin İşləri 7:59-60)*

Bəli, bağışlamaq insana əziyyət verir, çünki bağışlama məhəbbətin qurbanıdır. Səmavi Atamızın bizi bağışlaması da Ona ağır gəldi. O, Öz Oğlunu verdi! İndi isə O, ürəklərimizi dəyişdirmək və Məsihin başqalarına qarşı olan mərhəməti ilə doldurmaq istəyir.

**Düşünmək və yazmaq üçün təklif:**

> *"Əgər başqa insanların təqsirlərini bağışlasanız, Səmavi Atanız da sizi bağışlayar. Amma siz başqa insanları bağışlamasanız, Atanız da sizin təqsirlərinizi bağışlamaz." (Matta 6:14-15)*

Yuxarıdakı ayələri düşünün. İsanın Müjdəsi bizə bağışlamağı öyrədir. Rəbdən diləyin ki, sizə pislik edənlərə qarşı mərhəmət dolu ürəyi bəxş etsin. Hiss etdiyiniz ağrıdan və kimisə bağışlamaqda çətinlik çəkdiyinizidən Ona səmimi ürəkdən danışın.

# 18-ci gün – Başqalarını bağışlamaq, onlara xeyir-dua vermək üçün vaxt ayırın

**<u>Düşünün:</u>** *“Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək.” (Matta 5:7)*

İndi keçən günlərdə bağışlamaq haqqında öyrəndiklərinizi həyata keçirmək zamanıdır. Sizi incidənlərin siyahısını tutun. Yadınıza düşən hər adı yazın. Bu iş günlərcə, hətta həftələrcə davam edə bilər.

Həyatınızın hər dövrünü yada salın və kiməsə inciyibsiniz, ürəyinizdə kiməsə qarşı kin qalıbsa, Müqəddəs Ruhdan bunu sizə göstərməsini diləyin. Bağışlamalı olduğunuz insanların adlarını yazın.

Ondan sonra İsanın bu təlimini düşünərək adları bir-bir sadalayın:

> *"Amma sizə deyirəm, ey Məni dinləyənlər: düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin, sizi lənətləyənlərə xeyir-dua verin, sizi incidənlər üçün dua edin." (Luka 6:27-28)*

Siyahınızdan bir adamı seçin, onu Allahın hüzuruna gətirin və Allahın hüzurunda onu bağışlayın. Yadda saxlayın ki, bağışlamaq, insanların pis işlərini onlara günah saymamaq deməkdir. O adamı sevdiyinizi hələ hiss etməyə bilərsiniz. Bağışlamaq, ağır bir yaranın dərindən təmizlənməsi kimi çətin bir işdir. Bağışlamaq üçün bizə Allahın köməyi lazımdır və bəzən bu tədricən olur. Həddən artıq çətin hallarda məsihçi bir qardaş və ya bacıdan kömək istəməliyik.

Sonra, İsanın yuxarıdakı ayələrdə öyrətdiyi kimi, o adam üçün dua edin. Bəlkə siz onlar üçün belə dua etmək istəyərsiniz ki, onlar İsa Məsihin lütfünü dadsınlar və İsanı tanıma səadətinə qovuşsunlar. Hamımızın əldə edə biləcəyimiz ən böyük xeyir-dua odur. Allahın o adama necə xeyir-dua verəcəyini və buna necə sevinəcəyinizi təsəvvürünüzə gətirə bilirsiniz?

Siyahıya davam edin. Hər addımda Allahdan sizə kömək etməsini diləyin. Bu əziyyətli günlərdə belə İsanın ardınca getməyi arzulamaqla Onu sevdiyini göstərirsiniz. Nəticədə Allahın dostluğuna nail olursunuz.

## **Düşünmək və yazmaq üçün təklif:**

İsanın bağışlama haqqında öyrətdiklərinə əməl etməkdə sizə kömək etdiyinə görə Allaha şükür edin. Bu ayəyə dair fikirlərinizi aşağıda yazın:

> *"Kim əmrlərimə bağlı qalıb onlara riayət edirsə, Məni sevən odur. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm." (Yəhya 14:21)*

*7. Nə bəxtiyardır ürəyi təmiz olanlar!*

# 19-cu gün – Azadlığa doğru cəsarətli addım atın

**Düşünün:** *"Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək." (Matta 5:8)*

Son günlərdə başqalarının bizə qarşı işlətdiyi günahları bağışlamağı öyrənməkdən danışmışıq. Bu günkü bəxtiyarlıq vədi bizi öz ürəyimizin əsaslı təmizliyini həyata keçirməyə ilhamlandırır. İsanın parlaq nuruna ürəklərimizi açmaq arada başqalarını bağışlamaqdan belə çətin olur. Lakin Məsih, daha böyük azadlığa çataq deyə, bizi Öz nuruna çağırır.

> *"Əgər siz Mənim sözümə sadiq qalsanız, həqiqətən, Mənim şagirdlərimsiniz. Onda siz həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək." (Yəhya 8:31-32)*

Hər şeyi nura gətirərək həqiqətə doğru əhəmiyyətli addım atmağa hazırsınızmı? Bunu təkcə məsihçi həyatımızın başlanğıcında deyil, təkrar-təkrar etməliyik. Hətta daha "yaşlı" imanlıların evlərində daha çox "zibillər" yığılmış ola bilər. İllər keçdikcə həyatımızdakı səliqəsizlik hədsiz dərəcədə böyüyür. Həvari Paul kimi deyirik:

> *Məsih İsa günahkarları xilas etmək üçün dünyaya gəldi... O günahkarlardan ən betəri mənəm. (1-ci Timofeyə 1:15)*

Paul İsanın şagirdi olduqdan 30 il sonra bu sözləri yazıb. Allah illər boyunca onun dərinliklərində işləyirdi. Lakin Paul ildən-ilə İsaya yaxınlaşdıqca, ürəyini daha yaxşı tanıyırdı, necə ki, Yeremya Peyğəmbər 600 il ondan əvvəl yazmışdı:

> *İnsan ürəyi hər şeydən hiyləgərdir, çarəsi yoxdur. Onu kim başa düşə bilər? (Yeremya 17:9).*

Bəzən biz fikirləşirik, guya yaşlandıqça, İsada yetkinləşdikcə öz gücümüzlə, öz salehliyimizlə iman yolunda yeriyə biləcəyik. Lakin Həvari Paul, ilk illərdə olduğu kimi sonrakı illərdə də Məsihin xilasedici qüvvəsinə ehtiyacı olduğunu bilirdi. İsanın kamil müqəddəsliyinin yanında ürəklərimizin nə qədər qaranlıq olduğunu görə bilərik. Biz həmişə lütfkar Xilaskarımıza ümid bağlayırıq, öz salehliyimizə yox.

Bu bəxtiyarlıq vədini tədqiq edərkən, Rəbbin bu vaxt istədiyi hər şeyi nurlandırmasına yol verəcəyik. Onun *"NƏ BƏXTİYARDIR ürəyi təmiz olanlar!"* sözlərini yadımızdadır və biz Ondan bizi dərindən təmizləməsini diləyirik.

## **Düşünmək və yazmaq üçün təklif:**

Müqəddəs Ruhun bu ayələrdən sizə nə öyrətdiyini yazın: Matta 5:8; Yəhya 8:12; Yəhya 3:19-21; 1-ci Yəhya 1:5-7

# 20-ci gün – Məsihin lütfünə iman etmək

**<u>Düşünün</u>:** *“Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.” (Matta 5:8)*

Məsihin əmr etdiyi kimi nurda gəziriksə, İsanın dövründəki dini rəhbərlərin günahını – ikiüzlülüğü rədd edirik. İsa şagirdlərinə belə dedi:

> *"Fariseylərin mayasından, yəni ikiüzlülükdən özünüzü gözləyin. Elə örtülü bir şey yoxdur ki, aşkara çıxmayacaq və elə gizli bir şey yoxdur ki, bilinməyəcək." (Luka 12:1-2)*

Öz günahımızı nura gətirərkən, bu əziyyətli prosesin hər addımında İbranilərə 4:14-16-nın həqiqətini gözdən qaçırtmayaq:

> *Beləliklə, Allahın Oğlu İsa göylərdən keçən böyük Baş Kahinimiz olduğuna görə əqidəmizi möhkəm tutaq. Çünki bizim Baş Kahinimiz belə deyil ki, zəifliklərimizdə bizim halımıza acıya bilməsin. Əksinə, hər cəhətdən bizim kimi sınağa çəkilmiş, lakin günah etməmişdir. Buna görə də lütfkar Allahın taxtına cəsarətlə yaxınlaşaq ki, vaxtında köməyə nail olmaq üçün mərhəmət alıb lütf tapaq.*

İndi o yeri bir neçə dəfə oxuyun. Zəifliklərimizi anlayan, halımıza acıya bilən mərhəmətli Baş Kahinimiz vardır. Ömür boyunca gündən-günə Onun lütfünə iman etmək, irəliyə doğru aparan yeganə yoldur. Yalnız Məsih çirkli ürəklərimizi təmizləyə bilər. Bu "ev təmizliyi"ndə bizim işimiz qaranlıq ürəklərimizi nura gətirmək və Rəbbə dönməkdir.

Martin Lüter (protestant reformasiyasının atası) azadlığını Məsihdə tapmazdan əvvəl, hər gün saatlarla tövbə edərək öz günahlarının əvəzini ödəməli olduğunu hiss etmişdi. Bu yolla əsla sülh tapa bilməzdi.

Biz dərk edəndə ki, İsa *"şər əməllərimiz naminə əzildi"* (Yeşaya 53:5), özümüzü əzməyimizin nə qədər təəssüflü olduğunu görməyə başlayırıq. Rəbbin qurbanına nə əlavə etmək olar? Məgər Onun qurbanı kifayət deyil idi? Öz günahlarımızı yuma cəhdlərimiz,

təqsirkar hiss etməyimizə səbəb olan günahımızdan daha çox Allahı incidə bilər.

Rəbbin ənamı əvəzsizdir, lakin bəzilərimiz bundan yararlana bilmirik, çünki qəbul edilməyə haqq qazanmalı olduğumuzu hiss edirik. Yeganə ümidimiz odur ki, məhəbbətə haqq qazanma cəhdlərimizə görə tövbə edək və Allahın əvəzsiz ənamını şükranla qəbul edək. Məsihçi həyatımızda başdan sona qədər Məsihin çarmıxda bizim uğrumuzda tamamladığı işə iman edərək yaşayırıq.

## **<u>Düşünmək və yazmaq üçün təklif:</u>**

Qalatiyalılara 2:19-21 və İbranilərə 4:14-16 üzərində düşünün. Allahın sizə öyrətdiklərini yazın.

# 21-ci gün – Allahın ürəyinizi yoxlamasına yol verin - 1-ci hissə

**<u>Düşünün:</u>** *"Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək." (Matta 5:8)*

Ürəyi təmiz olanlar günahları nura gətirmənin qədrini bilirlər. Biz bunu Müqəddəs Ruhun köməyi ilə edirik:

> *Ey Allah, məni yoxla, qəlbimi öyrən, Sən məni sınaqdan keçirib bütün fikirlərimi bil. Gör qəlbimdə pisliyə yol verirəmmi? Əbədi yolda mənə rəhbər ol! (Zəbur 139:23-24)*

Bu Məzmurda biz görürük ki, özümüzü yoxlayanda tək başımıza hərəkət etmirik, Allahın bu işdə bizə kömək etməsini diləyirik. Müqəddəs Kitabda açıq şəkildə Allahı incitdiyi deyilən şeyləri təkrar nəzərdən keçirmək bəzən faydalı olur. Siz Rəbbin nurunun önündə açıldıqca, aşağıdakı ayələr və suallar sizə kömək edə bilər. Bundan əlavə, Rəbb aşağıda sadalanmayan günahlardan da sizə danışa bilər.

Bəlkə siz artıq həyatınızın ən ağrılı sahələrindəki məsələləri həll etmisiniz və bu sizə heç o qədər ağır gəlməz. Yaxud, bəlkə, içinizdəki qaranlıqla üzləşməkdən qaçmaq istəyirsiniz. Bundan qaçmayın! Yuxarıdakı məzmurun sözləri ilə dua etməyə özünüzdə cəsarət tapın, sonra da Müqəddəs Ruhun danışmasına yol verin.

Bu siyahı ilə məşğul olduqca (bu gün və sabah), Rəbbin nurlandırdığı həyatınızın qaranlıq sahələrini qısa və konkret şəkildə yazın.

***Valideynə hörmətsizlik (Qanunun Təkrarı 5:16; Süleymanın Məsəlləri 23:22; Matta 15:3-9)***

- Valideynlərinizə qarşı hörmətsiz davrandınızmı (dilinizlə, münasibətinizlə, mülkünüzlə, vaxtınızla)?

***Dilin günahları (Yaqub 3:2-12; Matta 5:21-22; Çıxış 20:7):***

- Yalan demə vərdişiniz vardırmı? Nə cür yalanlar deyirsiniz?
- Başqaları haqqında qeybət edirsinizmi? Özünüzü öyür, başqalarını alçaldırsınızmı?
- Sözlərinizlə başqalarını yaralayır, lağa qoyur, tənqid edirsinizmi?

- Allahın adını boş yerə dilinizə gətirirsinizmi? Nalayiq sözlər söyləyirsinizmi?
- Tez-tez həyatınızdan şikayət edirsinizmi? Allaha və Onun verdiyi nemətlərə naşükür münasibət göstərirsinizmi (diliniz şükür etmirmi)?

***Oğruluq (Çıxış 20:15; Efeslilərə 4:28):***

- Başqalarından oğurluq etmisinizmi? Oğruluq etmə vərdişiniz vardırmı?

## Düşünmək və yazmaq üçün təklif:

Yazdığınız günahlar siyahısını hələ gözdən keçirməmisinizsə, indi bunu edin. Günahlarınızı bir-bir etiraf edin və sizi təmizləməsini Məsihdən diləyin. 1-ci Yəhya 1:5-2:2-ni təkrar nəzərdən keçirin.

***Siyahınız:***

# 22-ci gün – Allahın ürəyinizi yoxlamasına yol verin - 2-ci hissə

**<u>Düşünün:</u>** *“Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.” (Matta 5:8)*

Dünən etdiyiniz kimi, aşağıdakı siyahını oxumağa davam edin. Rəbbin nurlandırdığı həyatınızın sahələrini qısa və konkret şəkildə yazın.

***Düşüncənizdə və gözlərinlə işlətdiyiniz günahlar (Matta 5:27-29; Matta 7:1-5; Çıxış 20:17; Yaradılış 6:5):***

- Düşüncəniz Allahın qarşısında natəmizdirmi? Gözləriniz şəhvətlə baxırmı?
- Başqalarını mühakimə edirsinizmi? Mənfi fikirlərin ağlınızda alaq kimi böyüməsinə imkan verirsinizmi?
- Başqalarında olan şeylərin həsrətini çəkən "pis gözünüz" varmı? Başqalarının malının, mülkünün, vəzifəsinin, fiziki görünüşünün, uşaqlarının özünüzdə də olmasını arzu edirsinizmi? Başqalarında nə olmasını istəyirsiniz?

***Zorakılıq (Çıxış 20:13; Yaradılış 6:11-13; Matta 5:21-22; Yeremya 1:5):***

- Başqaları ilə zorakı rəftar edirsinizmi? Qəzəbli halda bir adam öldürmək istədinizmi, yaxud ölü olmasını arzu etdinizmi?
- Abort etdinizmi, yaxud kimisə abort etməyə cəsarətləndirdinizmi?
- Öz bədəninizə zərər verəcək bir şey etdinizmi? (Məsələn: intihar cəhdi, öz bədəninizi kəsmək, öz başınıza vurmaq, pis şeyləri yemək və s.)

***Cinsi əxlaqsızlıq və asılılıqlar (Çıxış 20:3-5, 14; 1-ci Saloniklilərə 4:3-5; Qalatiyalılara 5:19-21):***

- Öz bədəninizdən Allahı saymadan istifadə etdinizmi?
- Nikahdan kənar cinsi əlaqəyə girib zina etdiniz və ya pornoqrafiyaya baxdınızmı?
- Həyatınızda Allahın yerinə nə qoydunuz – hansı şeyləri yaxud davranışları? Başqa sözlə desək, Allahdan kənarda nələrdən təsəlli, rahatlıq və ya həzz almağa çalışırsınız? (Məsələn: cinsi əxlaqsızlıq, pul, başqalarına hökm etmək, narkotik, spirtli içki, yemək və s.)

***Cadu ilə məşğul olmaq (Levililər 19:31; Qanunun Təkrarı 18:9-13; Yeşaya 8:19-20; Həvarilərin İşləri 19:18-20):***

- Məsləhət üçün falçılara, cindarlara müraciət etmisinizmi?
- Başqalarına şəfa, bərəkət, yaxud lənət gətirmək üçün cadudan istifadə etmisiniz və ya ekstrasenslərə getmisinizmi?

## Düşünmək və yazmaq üçün təklif:

Yazdığınız günahlar siyahısını təkrar gözdən keçirməmisinizsə, indi bunu edin. Günahlarınızı bir-bir etiraf edin və sizi təmizləməsini Məsihdən diləyin. 1-ci Yəhya 1:5-2:2-ni təkrar nəzərdən keçirin.

***Siyahınız***

# 23-cü gün – Xəcalətin kökünün kəsilməsi

**<u>Düşünün:</u>** *“Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.” (Matta 5:8)*

Biz günahlarımızı Məsihə etiraf edəndə, bilirik ki, bəzi günahlarımızı başqalarına da etiraf edib bizim üçün dua etmələrini xahiş etməliyik. (Bax: Yaqub 5:16) Güvəndiyimiz başqa bir imanlıya ürəyimizi açırıqsa, bu, ruhani yetkinliyimizin əlamətidir. Çox ağrı çəkdiyinizi, uğursuzluğa düçar olduğunuzu bilən insanların sizi daha çox qiymətləndirdiyini görmək sizi heyrətləndirə bilər. Onlar dindarlıq donuna girmədiyinizi, əksinə, səmimi olduğunuzu görəndə bunu yüksək qiymətləndirərlər.

Məsihdə yeni məxluq olaraq sizin keçmiş həyatınız artıq sadəcə olaraq hekayənizdir. Həqiqi şəxsiyyətiniz o deyildir. Siz əzilmiş halınızı insanlarla bölüşəndə, onlar çox vaxt sizi etibar edə biləcəkləri bir şəxs kimi görməyə başlayarlar və, güman ki, öz zəifliklərini, günahlarını da sizinlə bölüşərlər. Bu halda siz onların sizə etibar etdiyini dərk etməlisiniz. Onların sizinlə bölüşdüklərini heç kimə danışmayın.

Bir yandan günahlarınıza haqq qazandırmayan, digər yandan isə sizi mühakimə etməyən bir adamın sizi yaxşı tanıması həyatınızda ən gözəl şeylərdən biri ola bilər. Bir gün İsaya rast gəlmiş bir qadının həyatında məhz belə oldu. Samariyalı qadının əhvalatını bilmirsinizsə, indi onu Yəhya 4:1-42-də oxuyun.

Samariyalılar qarışıq xalq idi və yəhudilər onlara həqarətlə baxırdı. Samariyalı qadın Yaqubun quyusundan su çəkməyə gələndə gördü ki, İsa quyunun yanında tək oturmuşdu. Qadın, başqa qadınların quyuya gəlmədiyi gündüzün qızmar vaxtında oraya gəlmişdi. Bəlkə də, başqa qadınlar ondan çəkinirdilər, o da onlara rast gəlmək istəmirdi.

İsa qadının həyatına dair gizlətmək istədiyi şeyləri üzə çıxardı. Qadın beş dəfə ərə getmişdi və indi əri olmayan bir kişi ilə yaşayırdı. Bu, qadına xəcalət verirdi, amma qadın Məsihin gözlərində bu halında belə onu qəbul etdiyini görürdü. Qadın, bəlkə də, ömründə ilk dəfə özünü qiymətli hiss etdi. Söhbətdən sonra o, quyudan ayrılıb başqalarını İsa ilə tanış olmağa çağırdı: "*Gəlin, etdiyim bütün əməlləri mənə söyləyən Adamı görün*" (John 4:29).

Bu əhvalat qadına o qədər təsir etdi, onu o qədər dəyişdirdi ki, o, özünü rədd edən şəhərə cəsarətlə qayıtdı və bütün şəhəri İsanın yanına gətirdi. Qadın artıq gizlənməli olduğunu hiss etmirdi. İsanı tapanda

dəyər tapdı və beləcə şəhər icması ilə əlaqə qurmaq üçün azad oldu. Bu, lütfün qüdrətidir. Biz hər dəfə olduğumuz kimi, ruhən yoxsul halda Allaha yaxınlaşanda, bizə lütf verilir.

Biz Məsihin Ruhunda yaşayan və Onun lütfünü göstərməyi bacaran xidmətçiləri ilə açıq olanda da eyni şeylər baş verir. Xəcalətin kökü kəsilir. Biz həyat suyunu içdiyimizə görə yenə həqiqətən yaşadığımızı görürük (Yəhya 4:13-14).

## **Düşünmək və yazmaq üçün təklif:**

Biz bu həqiqətləri ağlımızla anlaya bilərik, lakin onları həyata keçirmək üçün cəsarət lazımdır. Güvənə biləcəyiniz, günahlarınızı etiraf edə biləcəyiniz imanlı bir dostunuz vardırmı? Belə bir adam tanıyırsınızmı? Özünüzü başqa bir adama açmaqdan niyə qorxursunuz? Qorxularınızı burada yazın. Sonra irəli getmək üçün Rəbdən kömək istəyin.

### *8. Nə bəxtiyardır sülhyaradanlar!*

## 24-cü gün – Allahımız sülhyaradandır

**Düşünün:** *“Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq.” (Matta 5:9)*

Sülh yaratma, Müqəddəs Kitabın bir çox əhvalatlarında tapılır. Ən böyük əhvalat budur ki, Səmavi Atamız bizimlə sülh yaratmaq, barışmaq üçün yeganə Oğlunu dünyaya göndərdi. Rəbbin bu yolda verdiyi qurban təsəvvür edə biləcəyimizdən daha böyükdür. Onun etdiyi iş sayəsində indi dünyanın hər yerində milyonlarla insan Allahla barışa bilər (Romalılara 5:10-11).

Başqa bir heyranedici əhvalat Yaradılış Kitabındakı qardaşları tərəfindən köləliyə satılmış Yusifin əhvalatıdır. Yusif onların pis hərəkətlərinə görə illərlə əzab çəkdi. Misirdə ataları öləndən sonra qardaşları Yusifə yaxınlaşıb ondan mərhəmət dilədilər. Yusifə qul olmağı təklif etdilər. Aşağıdakı ayələrdə Yusifin onlarla necə gözəl rəftar etdiyini, onlara necə mərhəmət göstərdiyini görürük:

> *Yusif onlara dedi: "Məgər mən Allaham ki, məndən qorxursunuz? Baxın siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun. Daha qorxmayın, mən həm sizi, həm də övladlarınızı saxlayacağam." Yusif onlara ürəklərincə olan sözlərlə təsəlli verdi. (Yaradılış 50:19-21)*

Allah sülhyaradan olduğu kimi, Onun xalqı da sülhyaradandır. Biz Allahın barışmağı arzulayan ürəyini dərk edəndə, sülh yolunda əzab çəksək belə sülhü daşıyan insanlar ola bilərik.

## **Düşünmək və yazmaq üçün təklif:**

Romalılara 12:17-21-i oxuyun. Belə münasibət, dünyanın adətən etdiyi hərəkətlərdən necə fərqlənir? Bu ayələr sizə necə meydan oxuyur? Fikirlərinizi yazın.

# 25-ci gün – İncitdiyimiz başqa insanlarla düz olmaq

**<u>Düşünün:</u>** *“Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq.” (Matta 5:9)*

Bundan əvvəlki iki bəxtiyarlıq vədində (Matta 5:7-8) bizə qarşı işlədilən günahları və öz işlətdiyimiz günahları Allahın önünə qətirmişdik. Ancaq unutmayaq ki, günah bir qayda olaraq bizimlə Allah arasında olmaqla qalmır, başqa insanlarla münasibətlərimizə də təsir edir. Günah işlədərkən öz mənafeyimiz üçün başqalarını aldadır, tapdalayır, hörmətdən salırıq. Qabil qardaşı Habili qətl etdikdən sonra Allah Qabildən qardaşının harada olduğunu soruşdu. Qabil belə cavab verdi: *"Bilmirəm, məgər mən qardaşımın keşikçisiyəm?"* (Yaradılış 4:9). Təəssüflər olsun ki, bəzən bizim rəftarımız da buna bənzəyir.r

Düzünə qalsa, Allah qardaşımızın keşikçisi olmağımızı istəyir. Biz bütün insanlarla yaxşı münasibətlərdə olmaq üçün yaranmışıq. Günaha batmış bir dünyada bunun üçün səy tələb olunur, lakin biz sülh yaratmağa çalışmasaq bu, çox ciddi məsələlərlə nəticələnər. Fərdlər arasındakı günahlar zamanla ölkələr arasındakı müharibələrə gətirib çıxara bilər.

Son günlərdə günahlarımızı Allaha etiraf etməklə dünyamızda sülh yaratma yolunda daha bir addım atmışıq. Ancaq bununla kifayətlənmək olarmı? Günahlarımızla incitdiyimiz adamlara heç nə demək lazım deyilmi? Onlara qarşı günah etdiyimizə görə çəkdikləri ağrıya əhəmiyyət verməmək olarmı? Qürurumuz səbəbilə bununla üzləşmək bizə çətin gəlir, lakin nurda gəzmək üçün daha bir addım atmağımız vacibdir. Həvari Yəhyanın dediyini diqqətlə oxuyun:

> *Amma O, nurda olduğu kimi biz də nurda gəziriksə, onda bir-birimizlə şərikliyimiz var və Onun Oğlu İsanın qanı bizi hər günahdan təmizləyir. (1-ci Yəhya 1:7).*

Həqiqi münasibətlər (başqaları ilə şəriklik və sülh) üçün həlimlik və düzlük tələb olunur. Düzlük təkcə günahınızı Allaha etiraf etməklə olmur. Bir adamla sülh yaratmaq üçün biz pozulan münasibətlərdə öz günahkar rolumuzu o adama etiraf etməliyik. Bu həmişə mümkün olmaz. Bəzən bunu etməklə biz o adama daha çox zərər verə bilərik. Lakin biz dua edə-edə, Rəbdən müdrikliyi diləyə-diləyə, münasibətlərimizi bərpa etmək üçün bir şey edə bilərik.

*İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın. (Romalılara 12:18)*

## <u>Düşünmək və yazmaq üçün təklif:</u>

Matta 5:23-24 üzərində düşünün. Fikirlərinizi yazın, sonra incitdiyiniz hər kəs ilə sülh yaratmaq üçün müdriklik üçün dua edin.

# 26-cı gün – İsa dünyanı necə dəyişdirir

**Düşünün:** *“Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq.”* *(Matta 5:9)*

İsanın dəyişdirdiyi insanlar sülhyaradan olurlar və sülhyaradanlar öz dünyasında gözəl dəyişikliklər həyata keçirirlər. Əhdi-Cədiddə bunun yaxşı bir nümunəsi, Zakkay adındakı İsrailli vergiyığanın əhvalatıdır. İndi Luka 19:1-10-da bu əhvalatı oxuyun.

İnsanların Zakkaydan zəhləsi gedirdi, çünki o, Romaya qulluq edir və İsrailli soydaşlarını aldadırdı. Onun pulgirliyi üzündən ürəyi daşa dönmüşdü. Lakin daş ürəkli insanlar belə ürəklərinin dərinliklərində öz günahlarını bilirlər. Zakkay İsanı görmək üçün ağaca dırmaşdığı gün, onun ürəyində bir şey baş verirdi. İsa o ağacın yanından keçərkən başını qaldırdı, ağaca dırmaşmış vergiyığana baxdı və onu adı ilə çağırdı!

> *"Ey Zakkay, tez aşağı düş. Bu gün Mən sənin evində qalmalıyam." (Luka 19:5)*

İsa Zakkayla hələ tanış olmamışdı, buna görə də İsanın onun adını bilməsi onu yəqin ki heyrətləndirdi. Bəzilərimiz Zakkay kimiyik – Xilaskarın bizə vaxt ayıracağını təsəvvürümüzə gətirə bilmirik. Lakin necə gözəldir ki, İsa hər birimizi adı ilə tanıyır! Necə gözəldir ki, biz buna layiq olmadığımızı hiss edəndə, Allah bizi Özü ilə vaxt keçirməyə çağırır!

Biz İsanı həyatımıza çağıranda həyatımız çox dəyişir. Zakkayın İsa ilə bircə dəfə görüşməsi onu tamamən dəyişdirdi. Həqiqi tövbənin anı gəlib çatdı!

> *Zakkay ayağa qalxıb Rəbbə belə dedi: "Ya Rəbb, əmlakımın yarısını yoxsullara verərəm və kimdən haqsızlıqla bir şey almışamsa, ona dördqat qaytaracağam." (Luka 19:8)*

İsa Zakkayı təriflədi, çünki Zakkayın xilas çağırışına ani müsbət cavabı, keçmiş səhvlərini düzəltmək arzusu oldu. Allah hər birimizdə səhvlərimizi düzəltmək istəyən yumşaq ürəyi yaratmaq istəyir.

## **Düşünmək və yazmaq üçün təklif:**

İsa Zakkaydan razı idi. Zakkay nəinki özünün yanlış həyat tərzinə son qoydu, həm də keçmişdə soyduğu insanlara pullarını geri verməklə öz səhvlərini düzəltdi. Bu, həqiqi xilas idi! İsanın ardıcılları pozulmuş münasibətlərini bərpa etməkdən ötəri bu qədər səy göstərsə dünyanın necə dəyişiləcəyini təsəvvür edə bilərsinizmi?

Rəbb, Zakkay kimi başqalarına qarşı keçmiş yanlış hərəkətlərinizi praktik şəkildə düzəltmək barəsində sizə də danışırmı? Onun səsinə qulaq asmağa vaxt ayırın və Onun sizə dediyini aşağıda yazın.

### *9. Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər!*

## 27-ci gün – Məsihlə birlikdə təqiblərdən keçmək

**Düşünün:** *Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər. (Matta 5:10-12)*

Biz imanımıza görə çətin vəziyyətə düşəndə bəzən ürəyimizdə, "Kaş Məsihə xidmətdən uzaqlaşa biləydim" deyirik. Lakin bizə Məsihi tanıdan başqalarının bizə nə qədər kömək olduqlarını yada salırıq. Allah bizdən müftə aldığımız kimi müftə verməyimizi tələb edir. İsa bizim uğrumuzda *hər şeyi* verdi. Biz həmçinin bilirik ki, adları bilinməyən milyonlarla imanlı Müjdənin bizə çatması naminə əsrlər boyunca özünü qurban vermişdir. Bəzisi buna görə hətta canından keçmişdir! Biz də hər gün özümüzü qurban verməyi öyrənirik.

> *Sonra hamısına söylədi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin." (Luka 9:23)*

Çalışırıq, getdiyimiz hər yerdə, ələlxüsus qaranlıq yerlərdə, nurumuz parlasın. Məhz o qaranlıq yerlərdə şeytanın kor etdiyi qəzəbli insanlar bizə qarşı dururlar. Bu qarşı durma İsaya da tanış idi. (Yəhya 15:18-25)

Təqib zamanında biz öz zəifliklərimizi kəşf edirik və yazıq dilənçilər kimi İsanın yanına qaçırıq. Ruhən yoxsul halımızda Ona fəryad edərək, Ondan utanmayaq və nura nifrət edənləri sevməyə davam edək deyə, bizi gücləndirməsini rica edirik.

İsa tutulanda şagirdləri qaçdıqları kimi, biz də təqibdəki əziyyətdən qaça bilərik. (Mark 14:50) Ancaq biz öz canımızın harayında olsaq, bu hərəkətimizlə İsanın bu vaxta qədər həyatımızda etdiyi hər şeyi inkar edərik. Biz öz həyatımızda İsadan şəfa aldıqca, tədricən salehlik yolunda olan çətinliyi, itkini və ya əziyyəti seçməyə özümüzdə güc tapırıq. Çünki Allahın Padşahlığını sevmək və əzab-

əziyyət çəkərkən İsaya baxmağı öyrəndik. Öz padşahlıqlarımızı itirəndə tamamilə Rəbbin Padşahlığına giririk. (1-ci Peter 4:1-2)

## **Düşünmək və yazmaq üçün təklif:**

Əvvəlki səhifənin yuxarısındakı ayələri təkrar yavaş-yavaş oxuyun (Matta 5:10-12). Allaha qorxularınızı və təqibdə güclü qalma ümidlərinizi ifadə edən bir dua yazın.

# 28-ci gün – Biz Məsihlə birlikdə dayanacağıqmı?

**<u>Düşünün:</u>** *“Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər.” (Matta 5:10-12)*

İsa bu ciddi mövzudan bütün Müjdələrdə dəfələrlə danışır. (Məsələn, bax: Matta 24.) İsa bilir ki, biz təqibdən qaçmaq istəyirik. Çox vaxt istəsək, bundan qaça bilərik. İmanımızı inkar edə bilərik, yaxud İsanın təqibə dair təlimini rədd edə bilərik. Çətin anda hamını razı salmaq üçün bizdən tələb olunan sözləri deyə bilərik. Ancaq daxilimizdə bir səs belə sual verir: "Sənə bu azadlığı, ümidi verən Məsihdən üz döndərə bilərsənmi? Həqiqətin tərəfində olacaqsanmı?"

Martin Lüter Məsihlə birlikdə dayandı. Onun dövründə Roma kilsəsi iman vasitəsilə, lütflə xilas olmaq barəsindəki xoş xəbəri demək olar ki, itirmişdi. Kilsə insanlara günahlarının əfvini pulla satır, sonra da o pulla yeni kilsələr tikirdi. Kilsə varlaşır, ən üstdəki rəhbərləri dəbdəbə içində yaşayırdı. Məsihin bütün insanlar uğrunda əvəzsiz olaraq verdiyi qurbana əhəmiyyət verilmirdi.

Martin Lüter Əhdi-Cədiddəki Romalılara Məktubu oxuyur, Müjdənin gözəl və sadə təliminin vəz edilmədiyini görürdü. O bilirdi ki, onu öldürə bilərlər, buna baxmayaraq, cəsarətlə həqiqəti danışdı və yazdı. Onun kitabları, o cümlədə Müqəddəs Kitabın alman dilinə tərcüməsi, Avropanın hər tərəfinə yayıldı. 1521-ci ildə Lüter yalançı təlim yaymaqla ittiham edildi və məhkəmədə Lüterin öz təlimindən imtina etməsi tələb edildi. Lüter bunun ona baha başa gələ biləcəyini bildiyi halda, "Vicdanım Allahın Kəlamına bağlıdır!" deyib, fəaliyyətindən imtina etmədi. "Heç nədən imtina etməyəcəyəm! Öz vicdanına qarşı gedən insan nə əmin-amanlıqda olar, nə doğru davranar. Allah mənə kömək olsun! Amin. Mən bu mövqedə dayanmışam və başqa cür davrana bilmərəm".

Çox insan Lüterlə əl-ələ verib yorulmadan Müjdənin həqiqətini Avropanın hər tərəfinə yaydı. Müqəddəs Kitab sadə xalq dillərinə tərcümə olundu və xalqlara öyrədildi. Kimisi öldürüldü, kimisi həbs edildi, kimisi işdən qovuldu, kimisi ailə üzvləri tərəfindən rədd edildi.

Lakin onları təqib qorxusu dayandırmadı. Onlar bizim bu gün Müjdəni eşitməyimiz üçün əziyyət çəkdilər.

## Düşünmək və yazmaq üçün təklif:

Ola bilir ki, siz Müjdənin tərəfində dayandığınıza görə artıq əziyyət çəkmisiniz. Yaxud, Peter kimi, təzyiqə dözməyib Məsihi inkar etmisiniz (Mark 14:66-72). Bəlkə gələcəkdə təqib edilməkdən qorxursunuz. Romalılara 1:16-17 üzərində düşünün. Bunlar, Martin Lüterin ən sevdiyi ayələrdən idi. Sonra, əgər siz Müjdədən utanmasanız, ölkənizdə nələrin baş verə biləcəyini görmək üçün Rəbdən kömək istəyin.

# 29-cu gün – Azad olmaq üçün dua və Allahın iradəsinə təslim

**Düşünün:** *“Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər.” (Matta 5:10-12)*

Hamımız bütlərə pərəstiş edən cəmiyyətlərdə yaşayırıq. Bu "yalançı allahlar" pul, səlahiyyət, seks və başqa şeylər ola bilər və bunların qarşısında diz çöküb pərəstiş etmək istəməyən məsihçilər müxtəlif cür təqiblərlə üzləşə bilərlər. Bəzilərimiz hansısa bir dinə qulluq etməyi tələb edən ölkələrdə yaşayırıq. İsanın öyrətdiyi kimi imanla yaşayanlar hücumlara məruz qalır, böyük cərimələr ödəməyə məcbur olur, həbs edilir və hətta öldürülürlər.

Əhdi-Ətiqdə Babilə sürgün edilmiş üç ibrani gəncin əhvalatı yer alır. Padşah əmr etdi ki, hər kəs yerə əyilərək onun düzəltdiyi heykələ səcdə etsin. Ona səcdə etməyənlər diri-diri yandırılacaq idi. Bu əhvalatı Əhdi-Ətiqdə, Daniel 3-cü fəsildə oxuya bilərsiniz.

İbrani gənclər heykələ səcdə etməkdən imtina etdilər və padşah hiddətə gəldi. O əmr etdi ki, sobanı adətən qızdırdıqlarından yeddi dəfə artıq qızdırsınlar. Lakin üç gənc kişi belə dedi:

> *"Ey Navuxodonosor, bizim bu iş üçün sənin önündə özümüzü müdafiə etməyimizə ehtiyac yoxdur. Ey padşah, əgər belə olsa, qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq. Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik." (Daniel 3:16-18)*

O adamlar Allahın onları xilas etməyə qadir olduğuna inanır, lakin Allah onları xilas etməsə belə ölməyə hazır idilər. Bu əhvalat onların möcüzə ilə xilas olmaları ilə qurtardı. O adamların əl-qolunu bağlayan iplərdən başqa heç nəyi yanmadı. Odun içində onlarla birlikdə "allahların oğluna bənzəyən" bir kişi də var idi!

Başqa bir əhvalatda İsa Atasına dua edirdi ki, Onu ölümdən qurtarsın. Ancaq duasının sonunda, *"Amma Mənim yox, Sənin iradən olsun"* deyirdi (Mark 14:36). Bu gün biz o Adamın Atasının iradəsinə görə bizim uğrumuzda çarmıxı daşıdığına sevinirik. Onun ölümü dünyaya həyat verdi.

## **Düşünmək və yazmaq üçün təklif:**

1-ci Peter 4:12-19 üzərində düşünün. Həvari Peter Məsihi inkar etdikdən neçə illər sonra bunu yazdı. Axırda Peter, imanı uğrunda çarmıxa çəkildi. Fikirlərinizi ömrünüz boyunca Məsihə sadiq qalmaq üçün bir dua şəklində yazın.

## *10. Son sözlər*

# 30-cu gün – Bizi əbədi olaraq qidalandıracaq *Çörəyi* tapmaq

***Düşünün:*** *"Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib gələnə Mən gizli saxlanan mannadan verəcəyəm…" (Vəhy 2:17)*

Biz sınıq qəlblərimizi, ac ürəklərimizi İsanın *ilk* təlimi olan bəxtiyarlıq vədlərinin işığına gətirmişik. Yuxarıdakı ayə, İsanın son sözlərindən biridir. İsa "*gizli saxlanan manna*"dan bəhs edir.

Manna, Allahın səhrada səyahət edən xalqına verdiyi möcüzəvi çörək idi. İsa söz verir ki, biz öz həyatımızın səhrasından Onunla birlikdə keçərkən, O bizi yaşadacaq. O bizə həqiqi mannanı göstərir:

> *"Həyat çörəyi Mənəm. Ata-babalarınız çöldə manna yedilər və öldülər. Bu isə göydən enən elə bir çörəkdir ki, ondan yeyən şəxs heç vaxt ölməz. Göydən enmiş canlı çörək Mənəm. Əgər kimsə bu çörəkdən yesə, əbədi yaşayar. Dünyanın həyatı üçün verəcəyim çörək Öz ətimdir." (Yəhya 6:48-51)*

Bizi hər şeydən çox doyduran "*gizli saxlanan manna*"mız İsadır. Ancaq nə üçün bu manna gizlidir? Allah yaxşı bir şeyi nə üçün gizli saxlasın? Bəxtiyarlıq vədlərini bir-bir öyrənərkən gördüyümüz kimi, Allahın ən qiymətli xəzinələri təkidlə diləyənlərə, axtaranlara, qapını döyənlərə qismət olur. Allah istəyir ki, biz Onun üçün o qədər acıb-susayaq ki, Onu bütün ürəyimizlə axtaraq.

> *"Məni axtaracaqsınız, əgər bütün qəlbinizlə axtarsanız, tapacaqsınız." (Yeremya 29:13)*

Biz ehtiyacımızı anladığımıza görə bəxtiyarlıq vədlərini öyrənməyə başlamışdıq və axırda Allahı tanımağa can atdığımıza görə öz həqiqi evimizə qovuşacağıq. Bu dünya həqiqi evimiz deyildir. Biz burada səyahətçiyik. Ürəklərimiz göylərə məxsusdur. Biz Allahı sevmək və Allah tərəfindən sevilmək üçün yaranmışıq. İsanın aşağıdakı sözlərindən bərk yapışsaq, bu sözlər Allahı tanımayan dindar adamların səhvindən bizi qoruyacaq, doğru hədəfi gözdən qaçırmamağımıza kömək edəcək.

*"Siz Müqəddəs Yazıları araşdırırsınız. Çünki düşünürsünüz ki, onların vasitəsilə əbədi həyata malik olacaqsınız. Lakin onlar da Mənim barəmdə şəhadət edir, sizsə həyata malik olmaq üçün Mənə tərəf gəlmək istəmirsiniz." (Yəhya 5:39-40)*

Əgər bizim səylərimiz İsa Məsihlə daha sıx münasibət qurmağımızla nəticələnmirsə, deməli ki, biz hədəfi vurmuruq.

## Düşünmək və yazmaq üçün təklif:

Bəxtiyarlıq vədləri üzərindəki bu düşüncələrin Məsihi tanımaqda və sevməkdə sizə necə kömək olduğu haqqında fikirlərinizi yazın. Onunla münasibətlərinizdə böyümək istədiyinizi Ona deyin.

# 31-ci gün – Özünüzdə şükür edən ürəyi yaradın

**Düşünün:** "*Kim ki şükür qurbanı təqdim edir, Məni şərəfləndirir. Doğru yol tutan şəxsə Allahın xilasını göstərəcəyəm.*" *(Zəbur 50:23)*

Biz bəxtiyarlıq vədlərini öyrənəndə gördük ki, həyatımızın acı gerçəklikləri ilə üzləşmək bizə azadlıq və şəfa verir. Həqiqətən, *nə bəxtiyardır* İsanın yolunu tutanlar!

5-ci gündə siz, Davud kimi, Allaha mənfi hisslərinizi ifadə edən bir dua yazmalı idiniz. İndi, bu son günümüzdə, Rəbbə ürəkdən minnətdarlığınızı ifadə edən bir dua yazın. Rəbb müqəddəs yazılarda israillilərə buyurmuşdur ki, onlar üçün etdiyi hər şeyi yadda saxlasınlar. Rəbb onları möcüzələrlə Misirdən çıxarsa da, onlar tezliklə şikayət etməyə, qorxuya düşməyə başladılar. Onlar Allahın xeyir-dualarını görmədilər, ancaq hər günün əziyyətlərini gördülər. Onlar keçmiş möcüzələri unutmuşdular, buna görə də Allahın onları indi xilas edəcəyinə də imanları yox idi.

Onların yaşadıqları və deyingən ürəkləri bizim üçün öz ürəklərimizi göstərən bir güzgü kimi ola bilər. Allaha şükür etsək, ürəyimizdəki imansızlığı və naşükürlüyü imana və sevincə döndərə bilərik.

***İsaya nə üçün şükür edə bilərik? Aşağıda bir neçə məsləhət vardır:***

- Həyatımızda hər şeydən bizi Özünə bənzətmək üçün istifadə etdiyinə görə Allaha şükür edin.
- Günahın dağıdıcı təbiətini aşkara çıxardığına və Özü günaha nifrət etdiyi kimi bizim də günaha nifrət etməyimizə kömək etdiyinə görə Allaha şükür edin (Süleymanın Məsəlləri 8:13).
- Çətin vəziyyətlər vasitəsilə bizi qüvvətləndirdiyinə və ağrı-acı vasitəsilə bizi daha həssas və rəhmli etdiyinə görə Allaha şükür edin.
- Gələcək üçün planlaşdırdığı hər şeyə görə Ona şükür edin. Hər şeyi bizim xeyrimizə işlətməyə qadir olduğuna və işlədəcəyinə əmin olduğunuzu Ona deyin (Romalılara 8:28). Allahı sevdiyinizi, özünüzü Ona həsr etdiyinizi Ona bir daha söyləyin.

- İsaya bənzər olasınız deyə Allahın sizi daha çox dəyişdirməsinə imkan verin. Sizin üzərinizdə səbirlə işlədiyini nə qədər yüksək qiymətləndirdiyinizi Ona bildirin.
- Təşəkkürünüzü bildirməkdən yorulmayın. Hər gün Rəbbə şükür etmək üçün səbəb tapın. Minnətdarlıq hisslərinizi Allahla və başqaları ilə paylaşmağa tələsin. Onun mərhəməti və xeyirxahlığı hər səhər təzələnir (Mərsiyələr 3:21-23).

## Düşünmək və yazmaq üçün təklif:

Əgər istəyirsinizsə, minnətdarlığınızı Zəburdakı kimi bir şeir və ya ilahi şəklində yaza bilərsiniz. Öz həyatınızda Allahın bol xeyir-duasını görmək üçün Müqəddəs Ruhdan kömək diləyin.

# Əlavə
# İman bəyanatları

### *Allahın Kəlamının həqiqətini öz ürəyinizə qəbul edin*

Fikrimizi cəmləşdirdiyimiz şeylər bizi dəyişdirməyə başlayır. Həvari Paul bu həqiqəti dərk etdiyinə görə belə yazmışdır:

> *Nəhayət, qardaşlar, doğru, ləyaqətli, saleh, pak, cazibəli, etibarlı nə varsa, əgər əla və tərifə layiq nə varsa, bunları düşünün. (Filipililərə 4:8)*

İsa istəyir ki, biz yaxşı şeyləri düşünək, Onun sevdiyini sevək və bizim üçün etdiyi işlərə inanaq. Şeytan sizə yalanları ilə hücum edəndə siz o yalanları Allahın kəlamındakı həqiqətlərlə dəf edə bilərsiniz. Aşağıdakı bəyanatlar, belə həqiqətləri Allahın kəlamından necə götürə biləcəyinizi göstərən bir neçə nümunədir. **İman bəyanatlarını öz-özümüzə ucadan söyləmək çox təsirlidir. Göstərilən ayələri Müqəddəs Kitabdan mütləq oxuyun. İstəsəniz, bunları əzbərləyə bilərsiniz.**

***ALLAH MƏNİ MƏSİH VASİTƏSİLƏ QƏBUL EDİR:***

- Mən günahlarımı etiraf edərək Məsihdən məni bağışlamasını dilədiyim vaxt günahlarım tamamilə bağışlanır və mən təmizlənirəm (1-ci Yəhya 1:8-10).
- Mənim əleyhimə edilən hər məhkumluq təsirsizdir, çünki mən artıq Məsihdəyəm (Romalılara 8:1).
- Allahla sülh içindəyəm (barışmışam), çünki Məsihin mənim uğrumda verdiyi qurbana imanla saleh sayılmışam (Romalılara 5:1).
- Məsihdə Allahın hüzuruna cəsarətlə yaxınlaşıb, ehtiyaclarımda köməyə nail olmaq üçün mərhəmət alıb lütf tapa bilərəm (İbranilərə 4:14-16).

***ALLAH MƏNİ DƏYİŞDİRİR və MƏHSULDAR EDİR Kİ, MƏN ONU İZZƏTLƏNDİRİM***

- Azad yaşamaq və çox bəhrə verməklə Atamı izzətləndirmək üçün Məsihdə qalacağam (Yəhya 15:1-8 və Yəhya 8:31-32).

***ALLAHDAN TƏSƏLLİ ALMAQ və TƏZƏLƏNMƏK İMKANI MƏNƏ VERİLMİŞDİR:***

- İsa mənim qeydimə qalan Yaxşı Çobandır, mən Onun quzularından biriyəm (Zəbur 23 və Yəhya 10:14-15).
- Məsihin boyunduruğunu üzərimə götürəndə canıma rahatlıq tapıram. Mən yorulanda, yüküm ağır olanda, Məsihin yanına gəlirəm (Matta 11:28-30).

***MÜQƏDDƏS RUHUN HÜZURU VƏ QÜDRƏTİ MƏNİM İÇİMDƏDİR:***

- Mən yetim deyiləm, çünki Məsihin Müqəddəs Ruhu mənim içimdə yaşayır və əbədi olaraq mənimlədir (Yəhya 14:15-18).
- Müqəddəs Ruh məni qüvvətləndirdiyinə görə, mən bu dünyada Məsihin şahidi ola bilərəm (Həvarilərin İşləri 1:8 və 2-ci Timofey 1:6-8).

***ÖMRÜM QAYĞI ÇƏKMƏKLƏ KEÇMƏLİ DEYİLDİR:***

- Səmavi Atam quşları yedizdirir və çöl zanbaqlarını geyindirir. O mənim də qayğıma qalacaq. Əvvəlcə Allahın Padşahlığını, salehliyini axtaracağam və hər günkü ehtiyaclarım barəsində Ona güvənəcəyəm (Matta 6:25-34).
- Gündəlik çörəyimi, müdrikliyi və bu dünyada Atamı izzətləndirmək üçün mənə lazım olan hər şeyi Atamdan istəyəcəyəm. O mənə lütfü ilə verəcək və Ondan dilədiyimə görə məni məzəmmətləməyəcək (Matta 6:11 və 7:7-11; Yaqub 1:5; Filipililərə 4:4-7).

***TƏQİB OLUNANDA TƏLAŞA DÜŞMƏYƏCƏYƏM:***

- Təqibə qəribə bir iş kimi təəccüb etməyəcəyəm, lakin Məsihdə möminliyə yaraşan bir həyat sürməyə çalışacağam. Yadda saxlayacağam ki, dünya məndən əvvəl Xilaskarım Məsihə nifrət etmişdi (2-ci Timofey 3:12; Yəhya 15:18; 1-ci Peter 4:12-16).
- Yadda saxlayacağam ki, İsa həmişə mənimlədir və Onun adına təqib olunanlara böyük mükafat verir. Mən də, İsa kimi, məni təqib edənlər üçün dua edəcəyəm (Matta 28:20; Matta 5:11-12; Matta 5:43-48; Luka 23:34).

# Bu kitab sizə faydalı olubmu?

***Faydalı olubsa, onu başqaları ilə paylaşa bilərsiniz.*** Bu kitab vasitəsilə imanda qüvvətlənə biləcək çoxlu tanışlarınız ola bilər. Bu kitabı tanışlarınızın arasında yaymaqda bizə kömək edin.

Onlara deyin ki, bu kitabı (və ona bənzər olanları) aşağıdakı saytdan pulsuz endirmək olar: www.learnhisways.com.

Bundan əlavə, kitabı çap edib başqalarına paylaya bilərsiniz. Ancaq onu satmaqdan mənfəət əldə etməməyinizi rica edirik. Müftə aldığınızı müftə verin. Yaxud kitabın çap xərclərini ödəmək üçün ianə istəyin.

Axırda bu kitabın sizə *necə* faydalı olduğunu bilmək istəyirik. Fikirlərinizi yuxarıdakı saytın "Bizimlə əlaqə qurun" bölməsində yaza bilərsiniz.

# Tərcüməçilər üçün Qaydalar

***Bu kitabı başqa bir dilə tərcümə etmək istəyirinizmi?***
***Bunun üçün bunları etməlisiniz:***

1. www.learnhisways.com saytına girib bizimlə əlaqə qurun. Kitabı hansı dilə tərcümə etmək istədiyinizi bizə bildirin. Sizinlə əlaqə qurmağımız üçün bizə e-poçt ünvanınızı yazın. Kitabın o dilə tərcüməsi artıq başlanmış ola bilər. Bu təqdirdə başqalarının işini təkrarlanmayasınız deyə sizə xəbər verəcəyik.
2. Tərcümə orijinal mətndən, yəni ingiliscədən yerinə yetirilməlidir. Bu kitabın ingiliscə versiyasını yuxarıdakı saytta tapmaq olar.
3. Tərcüməçi kitabın ingiliscə versiyasının sonunda yer alan "Tərcüməçilər üçün qaydalar"ı oxumalıdır. Kitabın ingiliscə versiyası həmçinin bu saytdan endirilə bilər: www.learnhisways.com
4. Kitab qaydalara görə tərcümə olunub yoxlandıqdan sonra saytdan bizimlə əlaqə qurun. Ola bilir ki, sizin tərcümənizi başqalarının pulsuz endirməsi üçün sayta yerləşdirərik.